

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Yaşıl dünya naminə həmrəylik ili"



10


# SƏS

№ 237 (6920)

26 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik


# AĞDAM: ən gözəl doğum günü hədiyyəsi!



3

# Qərbin "RƏNGLİ İNQİLAB" ssenarisi




6

## Tahir Budaqov: "Ağacəkmə aksiyaları ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərir"



5

## Zabux tarixi sakinlərini qarşılayır



7

## Bayramqabağı bazarlarda vəziyyət NECƏDİR?



12

## Əngəlləri aşdılar, cəmiyyətin stiqmasını yox



15

## Yeni il kimin bayramıdır?



14

# Söz əməlin kölgəsidir: Haqlı da bizik, güclü də!

***Bəli, artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın da, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.***



*PREZİDENT İLHAM ƏLİYEV: "Keçmiş məcburi köçkünlərlə görüşlərdə demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu"*

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur.

### «KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞLƏRDƏ DEMİŞDİM Kİ, SİZ ÖZ TORPAQLARINIZA QAYIDACAQSINIZ, BELƏ DƏ OLDU»

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı keçmiş məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qaytarıldığını vurğulayaraq bildirmişdir: «Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməriк ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır».

Çünki...

### «BU GÜN GÜC DƏ BİZİM TƏRƏFİMİZDƏDİR, ZAMAN DA BİZİM MÖVQEYİMİZİ GÜCLƏNDİRİR, BEYNƏLXALQ HÜQUQ DA»

Prezident İlham Əliyev bu gün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və tezliklə doğma yurdlarından köçkün düşən soydaşlarımızın öz dədə-baba torpaqlarına qayıdacaqlarını deyib: «Keçmiş məcburi köçkünlər öz dədə-baba torpaqlarına qaytarılır. Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməriк ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır».

Çünki...

### BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK - AZƏRBAYCAN XALQIDIR

Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq.

1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olunsa da 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: «Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam».

Bəli, bu gün...

### QARŞIMIZDA QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN YENİDƏN QURULMASI KİMİ BÖYÜK ÇAĞIRIŞ DAYANIR

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışında bildirib ki, bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edildiyini və bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcə olduğunu söyləyib və bildirib ki, işğaldan azad olunan torpaqlarımızda bərpa quruculuq işlərinin aparılması böyük vəsait tələb edir: «Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir».

### ÜMUMİLİKDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL PROBLEMLƏRİNİN HƏLLİ MƏQSƏDİLƏ SON 20 İLDƏ 5,1 MİLYARD MANATDAN ÇOX VƏSAİT AYRILIB Kİ, BUNUN DA 2 MİLYARD MANATDAN ÇOXU MƏNZİL ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASINA SƏRF OLUNUB

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev hansı məqamda, hansı şəraitdə, ən çətin anlarda vətəndaş amilinə, insan faktoruna qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması apardığı siyasətin mühüm prinsiplərindəndir. Dövlətimizin başçısı hələ 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. Və bu gün bir dənə də olsun çadır düşərgəsi qamayıb.

Bu gün ümumilikdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə 5,1 milyard manatdan çox vəsait ayrılıb ki, bunun da 2 milyard manatdan çoxu mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Bu illərdə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,6 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə artıb. Əməkqabiliyyətli 380 min məcburi köçkündən 160 mindən çoxu daimi işlə təmin edilib, 200 min nəfəri isə mövsümi işlərə cəlb olunub. Bütün bu uğurların təmin olunmasında heç şübhəsiz, bu təbəqədən olan soydaşlarımızın kompleks həllini nəzərdə tutan və Azərbaycan Prezidentinin sərəncamları ilə təsdiq olunmuş məlum Dövlət Proqramı və ona edilmiş əlavələr, həmçinin digər fərman və sərəncamlar, hökumət tərəfindən qəbul olunmuş müvafiq qərarlar xüsusi önəm daşıyır.

### HEYDƏR ƏLİYEV FONDUNUN HƏYATA KEÇİRDİYİ HUMANİST XARAKTERLİ UĞURLU LAYİHƏLƏR

Məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Həmçinin, onu da qeyd etmək lazımdır ki, qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil, Qaradağ rayonu ərazisindəki «Qobu Park» yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, Dövlət Proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış kompleksləri- dir.

Bəli, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib və Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Və qaçqın və məcburi köçkünlər əmindirlər ki, onlar Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində doğma yurdlarına qayıdmaqdadır. Bir sözlə, dövlət başçımızın dediyi kimi: « Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməriк ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

**RƏFİQƏ KAMALQIZI**

# AĞDAM: ən gözəl doğum günü hədiyyəsi!





***Doğum günlərini adəti üzrə xalqı ilə birlikdə qeyd edən dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev bu il də 24 dekabrda Ağdamda olmaqla özünəməxsus ənənəsini davam etdirdi. Müdrik sərkərdəliyi ilə işğaldan azad edilən Ağdam isə Prezidentimiz üçün ən gözəl ad günü hədiyyəsi oldu: azad olunduğu gündən bəri gözəlləşən hüsnü və həmin gün istifadəyə verilən, təməli qoyulan bir sıra möhtəşəm obyektləri, yolları, kəndləri, kompleksləri ilə... Bütün bunları seyr etmək insanın qəlbini qürur hissi ilə doldurur. Torpağı düşməndən geri alıb onun üzərindəki şəhər və kəndləri yenidən qurmaq, illərlə həsrətində olan sahibinə qaytarmaq, yurd-yuva hicranını vüsala çevirmək nə qədər savabdırsa, bir o qədər də böyüklük, müdriklikdir. Hər dövlət başçısına nəsib olmayan missiyadır.***



### Hər dəfə Ağdama baxanda...

Ağdamın inkişafına, yenidən qurulmasına hər dəfə baxanda ürəyimizi sızladan xatirələr canlanır gözlərimiz önündə: 27 il düşmən tapdağı altında qalan və 2020-ci ilin 27 sentyabrından başlanan yolla azadlığına doğru yolçuluğa çıxan Ağdam bir qərinəyə yaxın qara günlər yaşadı, gözəl hüsnündən əsər-əlamət qalmadı. Vəhşi düşmən bu ağ saraylı, ağ binalı şəhəri yerlə yeksan etdi. Dağıdıldı, yandırıldı, köksü qara tüstü burulğanına büründü. Ağ şəhər qara şəhərə çevrildi. Həm də qara günlü şəhərə...

27 il idi ki, adından "ağ" sözünü çıxarıb qara bəxtli, qara taleli adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu yerlərin ağ gününə qara tüstü püskürmüşdü. İlləri yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər - bir ailənin ümidi sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyada məşhur olan Qarabağ atlarının məskəni olan Ağdamın ağ atlı oğullarından, ağ duvaqlı qızlarından "danışırdı". 27 il əvvəl Qarabağın qoynundakı ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam edəcəkdi. Bu torpaqların sahibi gələcək, öz əzəli ata-baba yurdunu düşməndən təmizləyəcəkdi. Dövlətimizin başçısının dediyi kimi: Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi".

### Ağdam qara libasını çıxarıb öz tarixi bəyaz donunu geyinir

2021-ci il may ayının 28-də Ağdama səfəri zamanı Prezident İlham Əliyev demişdir: "Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək. Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq".

Bəli, həmin səfər çərçivəsində Ağdamın Baş Planı təsdiq edildi. Bu planla da Ağdam sürətlə ağ günlərinə qovuşmağa başladı. Ötən il fevralın 13-də dövlətimizin başçısının və birinci xanımın "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirakları ilə Ağdam 27 ilin qara libasını əynindən çıxarıb öz tarixi bəyaz donunu geyindi. İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xəttinin, Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabelin çəkilməsi, bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti bəxş etdi.

Dekabrın 24-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfərləri çərçivəsində dövlətimizin başçısının "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının açılışında iştirak etməsi müharibədən dərhal sonra başlanan və sürətlə həyata keçirilən tədbirlərin davamıdır. Dövlətimizin başçısına məlumat verilib ki, Ağdam rayonunun Xocalı rayonu ilə sərhədində yerləşən Şelli kəndi ərazisində "AzərEnerji" tərəfindən 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyası inşa edilib. "Ağdam" qovşaq yarımstansiyasına "Ağdam-1" yarımstansiyasından 10 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq ötürmə xətti və bu xəttin üstündəki ildırımötürücü trosun içində 24 damarlı fiberoptik kabel xətti çəkilib.

Bu yarımstansiyanın Ağdamın Xocalı ilə sərhədində tikilməsinin xüsusi əhəmiyyəti vardır. Yəni, "Ağdam" qovşaq yarımstansiyası rayonun bəzi kəndləri ilə yanaşı, əsasən Xocalı, Əsgəran, Xocavənd, Ağdərə və Xankəndini ölkə enerji sisteminə qoşmaqla bərabər, həmçinin ehtiyat qida mənbəyi kimi regionun enerji təchizatında etibarlılığı təmin edir. Bunun üçün yarımstansiyada ehtiyat yuvalar da quraşdırılmışdır. Regionda suverenliyimiz bərpa olunduğundan yaxın vaxtlarda "Ağdam" qovşaq yarımstansiyasından Xankəndiyə 110 kilovoltluq ötürmə xətti çəkilərək 110/35/10 kilovoltluq "Şuşa" və "Füzuli" yarımstansiyaları ilə əlaqələndiriləcək. Bununla da ikitərəfli elektrik təchizatına nail olunacaq. Eyni zamanda, Xocalı, Əsgəran və digər kənd və qəsəbələrin 35 kV-luq elektrik təchizatı da "Ağdam" qovşaq yarımstansiyasından təmin ediləcək. "Ağdam" qovşaq yarımstansiyasını işə salan dövlətimizin başçısı bununla Ağdama və ətraf rayonlara yeni bir nur bəxş etdi. Bu nur tək azad edilmiş rayonlarımızı işıqlandırmır, həm də bəzi məqamlara əbədi bir aydınlıq gətirir.

### Dördüncü və beşinci yaşayış kompleksləri həyata vəsiqə aldı

Bütün azad yurdlarımız kimi, Ağdam da hərtərəfli inkişafa qovuşur ki, Böyük Qayıdış çərçivəsində evlərinə qayıdacaq soydaşlarımız hər hansı bir problemlə üzləşməsin. Yeni salınan yaşayış kompleksləri də elə bu prinsipə xidmət edir.

Dekabrın 24-də dövlətimizin başçısının doğum günündə təməli qoyulan yaşayış kompleksləri əlamətdar bir gündə həyata vəsiqə alması ilə tarixin şanlı səhifəsini təşkil edəcək və gələcəkdə burada yaşayan soydaşlarımıza hər zaman həmin tarixi xatırladacaq.

*Ardı Səh. 4*

# AĞDAM: ən gözəl doğum günü hədiyyəsi!






**Əvvəli-Səh-3**

Ümumi sahəsi 14 hektara yaxın olan dördüncü yaşayış kompleksində tikiləcək yaşayış binalarında ümumi sahəsi 137 min kvadratmetr təşkil edən 1080 mənzildən 36-sı birotaqlı, 363-ü ikiotaqlı, 484-ü üçotaqlı, 197-si dördotaqlı olacaq. Ümumi sahəsi 12 hektar olan beşinci yaşayış kompleksinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq.

## Təhqir olunan tarixi abidələrimizdən biri: "İmarət" kompleksi

Ağdamın işğalından ötən 27 il ərzində düşmən yurdumuza divan tutdu. Bütün sosial obyektlər, ictimai yaşayış binaları kimi, tarixi abidələrimiz də məhv edildi. Bununla yanaşı, həm də təhqir olunaraq ona məxsus bina donuzçuluq təsərrüfatına çevrildi. Bu tarixi abidələrdən biri də Ağdamda yerləşən "İmarət" kompleksidir.

Bina Qarabağ xanlığının banisi Pənahəli xanın sarayı olub. XVIII əsrə aid bu tarixmemarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub. Qarabağ xanlarının nəslindən olan digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq da erməni vandalizminə məruz qalıb. İbrahimxəlil xanın türbəsi və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" Kompleksinin bərpasına başlanılıb. Bu məqsədlə xarici mütəxəssislər tərəfindən hazırlanmış konsepsiya 2022-ci il oktyabrın 4-də dövlətimizin başçısına təqdim olunub və bundan sonra işlərə start verilib. Ümumilikdə 3,3 hektar ərazini əhatə edəcək kompleks konsepsiyaya əsasən, Pənahəli xanın sarayı, türbələr və Qarabağ atları parkından ibarət olacaq, xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

## 5 hektarlıq yeni yaşıllıq

Düşmən 30 ilə yaxın dövrdə torpaqlarımızda bütün infrastrukturları, tarixi-mədəni abidələrimizi məhv etdiyi kimi, həm də yaşıllığa qənim kəsilmiş, ağacları kəsmiş, doğramış, satmış, bir sözlə hər tərəfi təbiət qəbiristanlığına çevirmişdir. Odur ki, azad torpaqlarımızda ilk gündən yeni yaşıllıqların salınması da digər tədbirlərlə birlikdə həyata keçirilir. Çünki bu torpaqlara qayıdan soydaşlarımız üçün yaşıllıq digər infrastruktur kimi vacibdir. Bütün bunlar nəzərə alınaraq Ağdamda da yeni yaşıllıq sahələri və parkların salınması diqqətdə salınır.

Ağdam şəhərinin yeni Baş planına əsasən salınacaq park 5 hektar ərazini əhatə edəcək. Parkın layihəsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri nəzərə alınmaqla hazırlanıb. Mərkəzi parkın ümumi ərazisi dörd zonaya ayrılacaq. Şəhər meydanı, Botanika bağı, Çəmənlik və Meşəlik zonalarında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq. Burada, həmçinin su oyun zonaları, çay evləri, istirahət və iaşə obyektləri, mədəni və öyrədici meydançalar, təhsil və sağlamlıq sahələri və aktiv oyun zonaları fəaliyyət göstərəcək.

## Ağdamda 1 gündə 3 kəndin təməli qoyuldu

Bilirdik ki, düşmən Ağdamda daşı daş üzərində qoymayıb, eşitmişdik. Lakin azadlığından sonra yolumuzu Ağdamdan salanda bunu canlı olaraq gördük. Gördük ki, İlahi, bura vəhşi bir qəbilə hücum edib, sağ qoyduğu bir şey olmayıb.

Bu gün isə Ağdam kərpic-kərpic yenidən qurulur, bərpa olunur. Dekabrın 24-də cənab Prezidentin bir gündə 3 kəndin-Qiyaslı, Salahlı Kəngərli, Baş Qərvəndin təməlqoyma mərasimində iştirakı da dediklərimizi təsdiq edən amillərdir. Qeyd edək ki, hər üç kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib.

Qiyaslı kəndinin ümumi ərazisi 400 hektara yaxındır. Kənddə 4972 nəfərin məskunlaşması planlaşdırılıb və ümumilikdə 1323 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 145 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2546 nəfərin köçürülməsi üçün 656 fərdi ev tikiləcək.

Qiyaslı kəndində 540 şagird yerlik məktəb, 180 yerlik isə iki uşaq bağçası və digər sosial obyektlər də inşa olunacaq.

* * *

Baş Qərvənd kəndinin ümumi ərazisi isə 476 hektardır. Kənddə 6057 nəfərin məskunlaşması və ümumilikdə 1495 fərdi evin tikilməsi nəzərdə tutulub.

Layihənin birinci mərhələsi üçün 202 hektardan çox torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 851 ailənin - 3703 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün bu mərhələdə 851 ev inşa ediləcək. Bu evlərin 170-i ikiotaqlı, 425-i üçotaqlı, 213-ü dördotaqlı, 43-ü isə beşotaqlı olacaq. Hər üç kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada uşaq bağçası, məktəb, kollec binaları, kollektiv istirahət və təhsil obyektləri, inzibati bina, klub icma mərkəzi, tibb məntəqəsi, aptek, mehmanxana, bazar və bir sıra xidmət müəssisələri yaradılacaq. Kəndlərdə enerji daşıyıcılarına qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunacaq.

## Ağdamın daxili yolları... Ağdamdan uzanan yollar

Yol ən birinci həyat, sonra mədəniyyət, daha sonra isə iqtisadiyyatdır. Yolun abad olması insanların sağlamlığına xidmət edir, məxsus olduğu xalqın mədəni səviyyəsini göstərir. Və abadlığı ilə birbaşa iqtisadiyyatın inkişafına təkan verir. Odur ki, dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərdən dərhal sonra ilk növbədə yol infrastrukturunun yenidən qurulması barədə göstəriş vermişdir. Ötən 3 ildə bu sahədə böyük uğurlar əldə olunmuşdur. Bunların növbətisi isə Ağdam rayonunun yollarıdır. O yollar ki, həm rayonun daxilində abadlaşdırılıb, həm də Ağdamdan Bərdəyə uzanan yollara rahatlıq, gözəllik bəxş olunub.

Dövlətimizin başçısı Ağdama səfəri zamanı şəhərin daxili yollarında aparılan işlərlə tanış olarkən bildirilib ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Bu yolların birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissəsi müsbət ekspertiza rəyi alıb.

Qeyd edilib ki, magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

* * *

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısının açılışında iştirak etdiyi Bərdə-Ağdam avtomobil yolu başlanğıcını Bərdə şəhərindən götürür və uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu dörd hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilib.

## Ağdam üçün yeni dövr başlanıb

Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb... Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır".

Dövlətimizin başçısının azad torpaqlarımıza hər səfəri onlara yeni həyatın bəxş olunması ilə nəticələnir. Elə Ağdamın da "üzünün" güldüyünü gördük növbəti səfərdə. Onun hüsnünə vurulan hər naxış bu gözəl şəhərin görüntüsünü dəyişir, 27 illik nisgilini sevincə çevirir. Ağdam həm də ona görə sevinir ki, sinəsində görülən hər bir iş onu sakinlərinə, doğmalarına yaxınlaşdırır. Çünki torpaq o vaxt bəxtəvərdir ki, sinəsi üzərində doğmalarının addım səslərini dinləyir. 27 illik sükutdan sonra Ağdam bu səsi duydu. Bu səsin daha kütləvi şəkildə duyulması isə Ağdama Böyük Qayıdışla olacaq. O gün isə çox yaxındadır. Səbr et, Ağdam, doğmalarınla birlikdə xoş, sevincli günlər səni gözləyir...

***Mətanət Məmmədova***

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib

***Dekabrın 23-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.***



Müşfiqabad qəsəbəsinin ərazisində keçirilən aksiyada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, YAP Mərkəzi Aparatının əməkdaşları, Gənclər Birliyinin üzvləri, partiyanın Bakı, Sumqayıt və Abşeron təşkilatlarının, həmçinin ETSN-nin nümayəndələri və ekokönüllülər iştirak ediblər.






Aksiya çərçivəsində 700 ədəd eldar şamı və zeytun ağacı əkilib. Eyni zamanda, ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib. Bu nəcib təşəbbüs ölkəmizdə həyata keçirilən yaşıllaşdırma siyasətinə daha bir töhfədir.

Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf



mühitin mühafizəsinə, yaşıllıqların və parkların salınmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xüsusi diqqət yetirib. Hazırda bu proses daha geniş vüsət alıb. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ətraf mühitin mühafizəsi və sağlam ekoloji mühitin yaradılmasını dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirib və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Yeni Azərbaycan Partiyasının nümayəndələri də bu prosesə layiqli töhfələr verirlər.

# Tahir Budaqov: "Ağacəkmə aksiyaları ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərir"



"Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar ölkə ərazisində və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri, mütərəqqi ümumbəşəri dəyərlərin təşviqinə verdiyi töhfələr minnətdarlıqla yad edilir, onun ideyalarının Azərbaycanın gələcək inkişafı üçün əhəmiyyəti xüsusi vurğulanır. Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyəti də bu ilin əvvəlində "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planını təsdiq edib".

Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov "Heydər Əliyev İli" çərçivəsində keçirilən ağacəkmə aksiyası zamanı jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, YAP İdarə Heyətinin təsdiqlədiyi Tədbirlər Planında müxtəlif tədbirlər nəzərdə tutulur: "Onlardan biri də Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsidir. Bu aksiyalara yaz aylarında start verilib və payız-qış mövsümündə də davam etdirilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, "Heydər Əliyev İli" çərçivəsində bu il ölkəmizin ərazisində ümumilikdə 3 milyondan çox ağac əkilib. Bu, ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcək, insanların həyat keyfiyyətinin yaxşılaşmasına öz töhfəsini verəcək".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan dünyada mövqelərini ildən-ilə möhkəmləndirir: "Aparıcı dövlət kimi Azərbaycan nəinki regionda, həm də qlobal miqyasda öz yerini təsdiq edib. Bu baxımdan, COP29 tədbirinin (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası-red.) məhz Azərbaycanda keçirilməsi ilə bağlı qərar tarixi əhəmiyyət kəsb etməklə ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir. Bu tədbir çərçivəsində dünyanın yüzlərlə dövlət və hökumət başçısı, bütövlükdə bu sahə ilə məşğul olan minlərlə insan Azərbaycana gələcək. Düşünürəm ki, COP29 ərəfəsində bu kimi ağacəkmə aksiyaları Azərbaycanın ekoloji sağlamlığa yetirdiyi diqqətin, iqlim dəyişikliyinin yaratdığı fəsadların yumşaldılmasına xidmət edən önəmli töhfəsinin bir nümunəsidir".

# Gürcü siyasətçi: "NATO yeni reallıqları nəzərə alaraq Cənubi Qafqazda güc sahibi olmaq istəyir"

Gürcüstan Avropa İttifaqına namizəd statusunu aldıqdan sonra NATO-da aktiv hərəkətə keçib və indi Cənubi Qafqaz regionunda yeni layihələrə imza atmaq niyyətindədir. NATO yeni reallıqları nəzərə alaraq Cənubi Qafqazda güc sahibi olmaq istəyir. Bunun üçün də rəsmi Tbilisi ilə əlaqələri intensivləşdirib layihələr həyata keçirmək istəyir. Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Levan Mamaladze söyləyib.



Onun sözlərinə görə, NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xaviyer Kolominanın Gürcüstana səfəri onların bu region ilə daha çox maraqlandıqlarını açıq şəkildə göstərir, Avroatlantik alyansın Qafqaza daha çox diqqət etdiyini sübut edir. Politoloq deyir ki, Gürcüstanın hərbi sistemi NATO standartlarına uyğun çalışır və bu da o deməkdir ki, qonşu dövlətlər də Avroatlantik alyansla daha sıx əməkdaşlıq etməyə imkan tapacaq.

L.Mamaladze bildirib ki, baş verənlərin fonunda Rusiyanın mövqeyinə diqqət yetirmək lazımdır. Bu cür addımlar atmaqla Gürcüstan həm də böyük risklər alır. Çünki, NATO-nun regionda aktivliyi Rusiyanın maraqlarına ziddir. Belə olan halda da Rusiya çalışacaq ki, bu əməkdaşlıq mümkün olmasın. Gələn il NATO ilə yeni əməkdaşlığa start veriləcək.

Politoloqun sözlərinə görə, Xaviyer Kolomina Azərbaycan və Ermənistan arasında əlaqələrin sülhə doğru getməsini yüksək qiymətləndirib. Çox güman ki, bu istiqamətdə də Tbilisi sülh müqaviləsinin imzalanması üçün bir məkan kimi hazırlanır. NATO da bu prosesdə aktiv rol oynamaq niyyətindədir.

# Qərbin “RƏNGLİ İNQİLAB” ssenarisi










***Rəngli inqilablar və onların hansı ssenarilər üzrə baş verdiyi artıq çoxdan bəllidir. Çoxdan bəllidir ki, demokratiyanı alət olaraq istifadə edən Qərb insan azadlığı, söz azadlığı, rahatlıq, təhlükəsizlik, sabitlik vəd edərək soxulduğu, daxili işlərinə müdaxilə etdiyi ölkələrə, əvvəlcə problemlər, ardınca da fəlakətlər gətirib. Bir neçə ölkənin nümunəsində deyə bilərik ki, Qərbin həmin ölkələrdə yaratdığı problemlərin və törətdiyi fəlakətlərin acısını isə şirin vədlərə aldanan ölkələr, onların vətəndaşları çəkməkdədir.***

Bir vaxtlar postsovet məkanını hədəfə alan Qərbin artıq kifayət qədər əli uzanıb və ölkələrin daxili işlərinə müdaxilə etməklə, onların vəziyyətini acınacaqlı hala salmaq, onları fəlakətə sürükləmək sanki ənənə halını alıb. Nəzərdə tutulan ölkədə hakimiyyət dəyişikliyi etmək, Qərb yönümlü hökumət qurmaq, bunun üçün də dəstəklənən siyasi namizədlərin seçkilərdə məğlubiyyətini qəbul etməmək əsas ssenarilərdəndir. Həmin ssenariləri quranlar, Gürcüstandakı “Qızılgül” inqilabını, Ukraynadakı “Narıncı” inqilabı, Qırğızıstandakı “Zanbaq” inqilabını törədənlər üçün bunun acı nəticələri zərrə qədər də maraqlı olmayıb və bundan sonra da hansı ölkə üçün nəzərdə tutulsa, həmin ölkənin də vəziyyəti Qərbi qətiyyən düşündürən deyil.

Qərb ölkələri, xüsusən ABŞ və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və təşkil edilən müxtəlif təşkilatlar, fondlar, qurumlar, onların fəaliyyəti haqqında da bilirik. Bilirik ki, rəngli inqlablar məhz həmin maliyyələşdirilən təşkilatlar tərəfindən hər zaman dəstəklənib və prosesə əvvəlcə geniş kütləvi etirazlarla, hətta idarəolunmaz nümayişlərlə başlanılıb. Belə xaotuk durumda, yəni, kütləvi etirazlar, nümayişlər zamanı bəzi hallarda təbii ki, polis müdaxiləsi, qanunsuzluq, zorakılıq da müşahidə edilib və görünür inqlabın baş verməsi üçün buna da bilərəkdən və əvvəlcədən rəvac verilib. Sözsüz ki, inqlabın nəticələrinin bütün ölkələr üçün eyni olacağını söyləməkə olmaz, amma istənilən rəngli inqlab, birmənalı şəkildə arzuolunmaz sonluqla yadda qalıb. Çünki həmin inqilabların baş verdiyi ölkələrdə sonda ancaq böhran, münaqişə müşahidə edilib. Hətta bəzi ölkələr üçün həmin inqlablar müstəqilliyinin tamamilə itirilməsi bahasına onlara başa gəlib.

Diqqətə çatdıraq ki, indi də Serbiyada iğtişaşlar başlayıb və bu iğtişaşların arxasında hansı qüvvənin dayandığını təyin etmək çətin deyil. Bu iğtişaşların olacağı barədə proqnozlar belə əvvəlcədən verilirdi. “Şərqdən olan xüsusi xidmət orqanlarımız rəngli inqilablar cəhdlərindən danışır”, deyən Serbiya prezidenti Aleksandr Vuçiç ölkədə rəngli inqilab təşkil etmək cəhdləri barədə hələ bu ilin may ayında bildirmişdi. Artıq Serbiyada “rəngli inqilab”a cəhd olunması təsdiq edir ki, Serbiya prezidenti haqlı idi, çünki iğtişaşlar artıq baş verdi.

Heç şübhəsiz ki, Serbiyada baş verən bu iğtişaşların da Qərbin indiyədək bir çox ölkələrdə sınaqdan çıxardığı “rəngli inqilab” ssenarisi olduğu zərrə qədər də şübhə doğurmur. “Bir çoxları Belqradın anti-Rusiya sanksiyalarına qoşulmasında israr edərək Serbiyaya öz iradələrini yeritməyə çalışırlar, lakin Serbiya müstəqil ölkədir və müstəqil siyasət yürütməyə də davam edəcək...”, deyə bəyan edən prezident Vuçiç öz bəyanatında açıq şəkildə qeyd edib ki, Serbiyaya öz iradələrini yeritməyə çalışanlar var. Sözsüz ki, çalışanların da hansı qüvvə olduğu bəllidir. “İstəyirlər ki, əvvəllər olduğu kimi iplə idarə olunacaq oyuncaq kimi idarə etsinlər - hökuməti və nazirləri seçə bilsinlər, hansı siyasətin həyata keçiriləcəyinə özləri qərar versinlər, faksla və ya telefonla əmrlər versinlər ki, Rusiyaya qarşı sanksiyalar tətbiq edin. Amma biz öz siyasətimizi aparmaq istəyirik...”, deyə bildirən Serbiya prezidenti bunu edənlərin Serbiyanı zəif görmək istəyi barədə də açıq-aşkar şəkildə fikirlərini çatdırıb.

Baş verən hadisələrin fonunda məhz Qərbin əleyhinə Vuçiç, eləcə də Rusiyadan verilən bəyanatlardakı oxşarlıqların çoxluq təşkil etməsi müəyyən məqamlara diqqəti cəlb edir. Həmin məqamlardan da belə qənaətə gəlinir ki, məhz həmin bəyanatlara, məlum mövqeyə görə Serbiyadakı iğtişaşları Qərb özü təşkil edib. Serbiyanın uzun illərdir ki, Avropa İttifaqına üzvlük üçün müzakirələr aparması, lakin Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Belqradın Moskva ilə Qərb arasında balanslı görünən mənzərəsinin dəyişməsi özü də belə qənaətə gəlməyə haqq verir. Serbiya Qərbin anti-Rusiya sanksiyalarına qoşulmaqdan imtina etdikdən sonra Serbiya-Kosovo sərhədindəki insidentlərin günbəgün artması özü də təsadüfi hesab olunmur və belə görünür ki, bütün bunlar bilərəkdən qızışdırılan hadisələrdir. Üstəlik, özündən ayrılan Kosovonu müstəqil dövlət kimi tanımayan və həmin ərazilərə tarixi ərazi subyekti kontekstində yanaşan Serbiyaya məhz buna görə də Qərb tərəfindən xoş yanaşılmır. Hətta Qərb indi Serbiyanı bir növ məcbur etməyə çalışır ki, Kosovonu tanısın.

Görünür, Vuçiç Rusiya əleyhinə bəyanat vermir, əksinə, Qərbi ittiham edir deyə hədəf də bəllidir. Onun dediklərinə istinad etsək, deyə bilərik ki, Serbiyadakı iğtişaşların maddi-texniki dəstəkçisi, onun mütəşəkkil səviyyəyə çatmaq planlarının müəllifi ABŞ və onun müttəfiqləridir. İndiki məqamda hər yerə burnunu soxan Qərb Serbiyanı da Kosovonun müstəqilliyini tanımağa məcbur etmək istəyi, ümumiyyətlə, həmin ölkədə də istədiyini etmək cəhdləri ilə iğtişaşlar törətməkdədir. Hətta Fransa, Almaniya liderlərinin belə bu ilin oktyabrında Belqradı məhz Kosovonu tanımağa açıq şəkildə çağırmaları da bəzi məqamlara aydınlıq gətirmək üçün kifayət edir. Bəlli olur ki, ABŞ və onun müttəfiqləri öz ənənələrinə uyğun olaraq, hərhansı ölkədə istədiyini reallaşdırmaq üçün məqbul hesab etdiyi bütün variantlara əl atır.

Biz artıq yaxşı bilirik ki, Qərb, məsələn, USAID vasitəsilə öz niyyətlərini bir çox ölkələrdə həyata keçirməyə çalışıb. Onu da bilirik ki, ilk növbədə diktə edən Qərb bunun qəbul olunmadığını gördüyü təqdirdə bölgədə, yaxud həmin ölkədə öncədən yerləşdirdiyi müxtəlif təşkilatlarını aktiv hala gətirir. Qərb tərəddüd belə etmədən diqtəsi qəbul edilməyən ölkədə qərbyönümlü müxalifət nümayəndələri, müxalifət təşkilatları vasitəsilə başlayır iğtişaşlar törətməyə. Sonra da loyal hakimiyyətlərin qurulmasına nail olmaq siyasəti aparır və bunun üçün nəyi lazım bilirsə, onu da edir. Ona görə nəyi lazım bilirsə deyə qeyd edirik ki, Qərb məhz öz mənafeyi, öz istəyi, öz maraqları naminə hər şey edir. Bu zaman, etiraz aksiyaları, idarəolunmaz halda olan nümayişlər, iğtişaş törədilməsi belə qəbul olunan hesab olunur. Baxmayaraq ki, bunların ardınca həmin ölkələr müxtəlif fəlakətlərlə qarşılaşmalı olurlar. Qərb isə bunu heç nəzərə də almır.

Bununla yanaşı, onu da qeyd etmək yerinə düşərdi ki, Qərb hər hansı bir dövlətin güclənməsini qətiyyən istəmir. Güclü bir dövlətin özünün müstəqil şəkildə inkişaf etməsinin, müstəqil siyasət yürütməsinin Qərb üçün qəbulolunmaz olduğu artıq sirr deyil. Qərbyönümlülər heç bir halda ayrı-ayrı ölkələrin, xalqların müstəqil inkişaf etməsini, firavan yaşamasını istəmirlər. Bütün dünya Ukrayna ilə bağlı məsələlərin nə yerdə olduğunu gördü. Gördü ki, əvvəlcə demokratiya, azadlıq, müstəqillik, firavanlıq vədi ilə dəstək göstəriləcəyi bildirilsə də, sonda faktiki olaraq, bundan imtina edildi. Ukrayna bu gün faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoyulub. Əvvəlcə Ukraynaya silah göndərən, maliyyə dəstəyi göstərən Qərb indi heç çəkinmədən, hətta utanmadan belə bildirir, tövsiyə edir ki, Ukrayna bu müharibədə geri çəkilməlidir. Bir sözlə, Qərb tam açıq-aydın şəkildə bildirir ki, öz dəstəyini Ukraynanın üzərindən götürüb. Bunun nə demək olduğunu yəqin təkcə ukraynalılar yox, elə bütövlükdə dünya ictimaiyyəti çox yaxşı başa düşür. Başa düşür ki, Ukraynanın itgi verməsi, zərərə uğraması, şəhərlərinin darmadağın edilməsi Qərb üçün heç nə olmamış kimi görünür. Anlaşılır ki, sonda Ukrayna fəlakət qarşısında da qalmalı oldu, işğala da məruz qalmalı oldu, zəifləyərək müstəqilliyini tamamilə itirmək təhlükəsi ilə də üzləşdi. Qərb isə bunu adi hal kimi qəbul edərək sadəcə, meydandan heç nə olmamış kimi çəkildi. Çünki verilən itgilər, dağıdılan şəhərlər, viran qalan yerlər Qərbə aid deyil və buna görə məhz Serbiya prezidentinin belə həyəcan təbilini başa düşmək çətin deyil.

Bəli, Qərb Azərbaycanı da bir zamanlar hədəf olaraq qəbul edib, heç indi də çirkin niyyətindən əl çəkənə oxşamır və ölkəmizə qarşı aparılan təxribat xarakterli fəaliyyət barədə də kifayət qədər məlumatlıyıq. Onu da bilirik ki, həmin o Qərb Azərbaycanı da uzun illər ərazilərinin işğalı ilə barışmağa məcbur etmək istəyib. Qərb tərəfindən hazırlanan eyni ssenari ilə Azərbaycanda da çevrilişlər planları qurulub. Müxtəlif təxribatlar üçün əvvəlcədən hazırlanan şəbəkə maliyyələşdirilib, təxribatlara sövq edilib. Dəfələrlə müxtəlif vasitələrlə ölkəmizdə iğtişaşlar törədilməsi cəhdi ilə Qərb bacardığını edib. Sevindirici və qürurverici odur ki, bu planları ölkəmizdə baş tutmayıb. Buna imkan verilməyib. Biz bilirik ki, Qərbin ikili standartları ilə hər zaman rastlaşmalı olmuşuq. Müxtəlif dövrlərdə aksiyaların təşkil edilməsi, bununla da iğtişaş və son nəticədə çevriliş etmək kimi Qərbin istəyi dəfələrlə ifşa olunub. Çünki buna nə xalqımız, nə də dövlətimiz imkan verməyib. Biz çox yaxşı bilirik ki, Qərb hər zaman Azərbaycanı özündən asılı vəziyyətə salmaq niyyəti güdüb. Amma xalqımızın və dövlətimizin buna imkan verməməsi ilə ölkəmiz indi qətiyyən heç kimdən, ələlxüsus da Qərbdən asılı deyil. Azərbaycan müstəqil ölkədir, qərarlarını da müstəqil şəkildə qəbul edir, müstəqil siyasət yürüdür və Qərbin timsalında hansısa qüvvənin ölkəmizin işlərinə qarışmasına, iğtişaşalar törətməsinə, hansısa niyyətlərini gerçəkləşdirməsinə qətiyyən imkan verilməyəcək.

***İnam Hacıyev***

# Zabux tarixi sakinlərini qarşılayır

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Laçın rayonunun Zabux kəndinə növbəti köç karvanı yola salındı. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 25-də Bakı şəhərinin Qaradağ rayonundan yola salındı. Bu mərhələdə Zabux kəndinə daha 27 ailə - 95 nəfər köçürüldü. Beləliklə, indiyədək Zabux kəndində 203 ailənin ( 783 nəfər) daimi məskunlaşması təmin edilmiş oldu.Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlər 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaradılıb.Vətən müharibəsində qazandığımız Zəfərdən üç ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Böyük Qayıdışımız reallığa çevrilir. Bu gün isə daha bir köçün görüşünə Laçının Zabux kəndi gəldi və onları salamladı. 44 günlük Vətən müharibəsi 30 ilə yaxın öz ata-baba yurdundan uzaq düşən, əzəli torpaqlarımızın həsrəti ilə yaşayan insanların acı talelərinə bir sevgi, əbədi bir dünya bəxş etdi. Vaxtilə qovhaqovla el-obalarından qaçqın düşənlərin ruzigarlarına salınan naxış bu gün öz rəngini dəyişib. Viran qalmış yurd yerlərinə əzəli sakinlər artıq sahibdirlər.



*Kənddə 203 ailənin daimi məskunlaşması artıq təmin edilib*





Laçının Zabux kəndi   İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. İndi isə onarın sayı artıb. Ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Xatırladaq ki, Zabux 18 may 1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. 30 illik işğaldan sonra 26 avqust 2022-ci il tarixində Azərbaycan Respublikasının nəzarətinə keçmişdir. Zabux çayının sahilində, Qarabağ yaylasında olan Zabux kəndinin keçmiş adı Xut Zabux olmuşdur. Əvvəllər bu ərazidə Sus Zabux adlı başqa kənd də var idi. Mənbələrə əsasən, XIX əsrdə Şuşa-Gorus yolunun döngəsində poçt dayanacağı olmuş və mövqeyinə görə Zabox adlanmışdır. Sonralar yaxınlığındakı Baharlı və ona birləşən şadmanlı kəndləri də həmin adla adlanmışdır. Kənddə işğal dövründə başçısı Zeylan Öcalan olan "Kürd konqresi" terrorçu qrupu yerləşdirilmişdir. Kənd ərazisində XIX əsrə aid tarix mədəniyyət abidəsi olan iki körpü var. Bütün tarixi dövrlərdə, Zabux kəndinin etnik tərkibi tamamilə azərbaycanlılardan ibarət olmuşdur.



### "BİZ İLDƏN-İLƏ DAHA DA BÖYÜK İŞLƏR GÖRMƏKLƏ ÖZ VƏTƏNDAŞLARIMIZI NORMAL ŞƏRAİTLƏ TƏMİN EDƏCƏYİK"

Əlbəttə ki, 30 il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağdılmış, viran qoyulmuşdur. Əqli mülkiyyətimizə, maddi mədəniyyət abidələrimizə böyük ziyan dəymişdir. Qarabağ, eyni zamanda onun ətrafında yerləşən Azərbaycan ərazilərində Birinci və İkinci Qarabağ müharibələri zamanı qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarix-memarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır. Böyük Qayıdışın ilk karvanı Ağalıdan başlasa da növbəti karvanlar digər ərazilərimizə yol aldılar. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Ağalı kəndində "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərir ki, kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin edilir. Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri fəaliyyət göstərir. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır. Ağalı kəndində 200 evdən ibarət gözəl kənd salınıb. "Mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub, özü də yaşamayıb, bizə də yaşamağa imkan verməyib. Biz isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik" – deyə Prezident çıxışlarının birində qeyd etmişdir. Belə də oldu. İlin sonuna yaxınlaşmışıq. Qeyd etdiyimiz kimi, Zabux kəndində 203 ailənin ( 783 nəfər) daimi məskunlaşması artıq təmin edilib.

### HƏM YAŞAMAQ, HƏM DƏ İŞLƏMƏK ÜÇÜN YARADILAN ŞƏRAİT

İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Məlumdur ki, 18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, çəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Artıq işğaldan sonra digər ərazilərimiz kimi, Laçın da böyük quruculuq meydanına çevrilib. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür.

Bu, əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. Azərbaycan Prezidentinin sözlərinə görə, 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqram deyil. Laçın şəhərinin Baş planı hazırlanıb. Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb. Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı nəzərə alınaraq şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır.

**_Zümrüd BAYRAMOVA_**



# Paşinyan iki daş arasında

## İrəvanda qondarma “dqr”-in hələ də mövcud olub-olmaması ilə bağlı müzakirələr gedir

***30 il özünü dövlət kimi sübut etməyə çalışan, amma Azərbaycanın 3 ay bundan əvvəl keçirdiyi antiterror tədbirləri nəticəsində özünü buraxan separatçı qurumun nümayəndələri yanvarın 1-də qondarma “dqr”-in ləğv edilməyəcəyini iddia edirlər. Artıq tarixin zibilliyinə atılmış qondarma “dqr”-in “prezident”inin müşaviri Vladimir Qriqoryan bildirib ki, buna əsas qurumun “rəhbəri” Samvel Şahramanyanın 19 oktyabr tarixli fərmanı olub və ona əsasən, bütün məmurlar, o cümlədən “deputatlar”, “nazirlər” və “hakimlər” könüllülük əsasında fəaliyyətini davam etdirəcəklər, yəni pulsuz. Buna cavab olaraq Ermənistan hakimiyyəti “ikinci erməni dövləti”nin müdafiəçilərini cinayət təqibi ilə hədələyib.***



“Müşavir” bunu belə əsaslandırıb ki, qurum yalnız xalq referendumu yolu ilə ləğv edilir və heç bir şəxs, hətta prezident belə respublikanı ləğv etmək səlahiyyətinə və hüququna malik deyil. Ermənistan rəhbərliyinin “Artsax dövlət orqanlarının fəaliyyətinin Ermənistan Respublikasının təhlükəsizliyinə təhdid yaradır” fikrinə münasibət bildirən Qriqoryan əlavə edib ki, bu təhlükəyə dair heç bir hüquqi sübut yoxdur: “Biz beynəlxalq ictimaiyyətlə fəal işləyəcəyik ki, bir gün bizim azad, müstəqil dövlətimiz olacaq”.

Qriqoryanın fikirləri baş nazir Nikol Paşinyanın komandasının kəskin reaksiyasına səbəb olub. “Samvel Şahramanyan kimdir ki, İrəvanda fərman imzalasın? Ermənistanda bir hökumət var. Buna qarşı çıxan və ya buna qarşı mübarizə aparan hər hansı təşəbbüs dövlət əleyhinə fəaliyyət kimi qiymətləndiriləcək və qanundan kənar sayılacaq və dövlət tərəfindən ən sərt tədbirlər görüləcək. Ermənistanı yeni hərbi təxribata cəlb etmək istəyənlərin bütün planları puça çıxacaq və onun müəllifləri ciddi şəkildə cəzalandırılacaq”, - deyə hakim “Mülki Müqavilə” fraksiyasının katibi Artur Hovhannisyan bildirib.

Parlamentin deputatı Lilit Minasyan isə öz növbəsində bildirib ki, Qarabağdakı qurumun təslim olması barədə sənəd imzalanıb, ona görə də Şahramanyanın İrəvanda imzaladığı bütün digər sənədlərin hüquqi qüvvəsi yoxdur. “Təhrikedici olmaqdan başqa, heç bir faydalı dəyər vermirlər. Ermənistanın təhlükəsizliyinə qarşı yönəlmiş istənilən təxribata isə hüquq-mühafizə orqanları tərəfindən ciddi hüquqi cavab verilməlidir”, deyə deputat bildirib. “Bəzi ağıllı adamların fikrincə, “dqr”-in təsisatları fəaliyyət göstərməyə davam edərsə, o zaman qurumun Ermənistan banklarına olan 315 milyard dram borcunu bəlkə də Ermənistan hökumətinin üzərinə götürməyə məcbur edərlər?” – deyə parlamentin digər üzvü Arusyak Julfakyan təklif edib.

Nəticədə Qriqoryan müsahibədə dediyi hər şeyin onun şəxsi fikri olduğunu bəyan etməyə məcbur olub. Üstəlik, o, istefa verib. Bununla belə, erməni separatçılarının istəyi və arzusu budur ki, “dqr” 2024-cü il yanvarın 1-də yox olmaq əvəzinə, fəaliyyətini davam etdirsin. Ermənistan cəmiyyətində isə bu qərarı gülməli adlandırıblar. Üstəlik, bu imtinanın arxasında Ermənistan hakimiyyətinə təhlükələrin olduğu qənaətinə gəlməyə çoxlu sübutlar da var.



Erməni politoloq Tiqran Koçaryan qeyd edib ki, Paşinyana ilk növbədə separatçı rejimin buraxılmasına, dağılmasına görə məsuliyyəti yerli ermənilərin çiyninə yükləmək üçün bu hadisələrin baş verməsi lazım idi. Bu baxımdan baş nazir müxtəlif yollarla Şahramanyanı qorxutmağa çalışır ki, başladığı işi başa çatdırsın. “Ona deyirlər ki, “Artsax” ləğv edilməsə, onun indi Azərbaycan həbsxanasında olan keçmiş rəhbərləri heç vaxt azadlığa buraxılmayacaq”, - deyə Köçəryan bildirib.

Ekspertin fikrincə, əgər Şahramanyan yanvarın 1-nə qədər “dqr”-in qorunub saxlanmasını dəqiq bəyan etməsə, Paşinyan deyəcək ki, artıq “ikinci erməni dövləti” yoxdur və baş verən və verəcək hadisələrə görə qondarma qurumun Ermənistandakı nümayəndələri günahkardır. Əvvəlcə Xankəndidə özünü elan etmiş “respublika”nın ləğvi haqqında fərman verdilər, sonra üç ay ərzində onu ləğv etmək üçün heç bir iş görmədilər. Eyni zamanda, Köçəryan Qarabağ uğrunda mübarizənin davam etdirilməsi ilə bağlı Ermənistanın üzərinə gələn “Azərbaycan təhlükəsi” arqumentini də əhəmiyyətli hesab etmir. Çünki Bakı istəsə, münaqişənin gərginləşməsi üçün çoxlu imkanlar tapa bilər, yəni anklavlar, Zəngəzur dəhliz və s.

Öz növbəsində azərbaycanlı politoloq İlqar Vəlizadə bildirib ki, prinsipcə, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi kifayətdir, lakin bir nüans var. “Bakı şübhəli şəxslərin şübhəli fərmanlarına arxalanmır. Şahramanyan heç kimdir, heç ictimai təşkilata da rəhbərlik etmir. Digər tərəfdən, “dqr”in qorunub saxlanması planları həyəcanverici əlamət sayıla bilər. Üçüncü tərəf bu vəziyyətdən istifadə edərək Cənubi Qafqazın işlərinə qarışa bilər”, - Vəlizadə izah edib. O, həmçinin bildirib ki, 2024-cü ildə “dqr”-in qorunub saxlanması sülh müqaviləsinin imzalanmasına mane olmayacaq, ancaq sənədi uydurmaya çevirə bilər. Məsələn, Ermənistan “dünyanın kəsişməsi” planını unutmalı olacaq.

Qondarma “dqr”in ləğvindən sonra Ermənistana qaçan qondarma rejim nümayəndələri, eləcə də erməni kilsə xadimləri əhali arasında Azərbaycana qarşı revanşist ideyalar yayırlar. Onlar qondarma rejimin unutdurulmasının yolverilməz olduğunu deyərək, bu məsələni gələcək nəsillərə çatdırmağın zəruriliyindən, Azərbaycandan qisas almaqdan bəhs edirlər. Maraqlıdır, separatçıların, erməni kilsəsinin yenidən fəallaşması eskalasiya riskini artıra bilərmi? Mövzu ilə bağlı siyasi şərhçi Əziz Əlibəyli qeyd edib ki, prosesin neqativ və pozitivləri Azərbaycan üçün hesablanmayıb: “Separatçı tör-töküntülərin mövcud Ermənistan iqtidarına qarşı təşkilatlanma projesidir.

RAKURS



Rəsmi İrəvanın məsələdə maraqlı olma ehtimalı azdır. Bu isə “itirilmiş torpaqlar” məfhumu üzərindən erməni xalqını yeni ideoloji cəbhədə səfərbər etməkdir. Digər tərəfdən, bunu Qərbdəki lobbi sifarişi kimi də dəyərləndirmək olar. Eyni zamanda, seçki kampaniyası müddətində təzyiq aləti kimi də istifadə edilə bilər. Yəni fərqli versiyalar irəli sürmək mümkündür, lakin hansısa eskalasiyanın olacağını düşünmürəm”.

### Sülh müqaviləsi hər şey deyil

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov müsahibəsində bildirib ki, sülh müqaviləsi ilə bağlı bütün əhəmiyyətli təşəbbüslərin müəllifi məhz Azərbaycandır. “Proses bir tərəfin istəyindən, arzusundan asılı deyil. Burada hər iki tərəfin müvafiq addımlar atması önəmlidir. Azərbaycanın suverenliyi tam bərpa olunduqdan sonra biz Ermənistan siyasi rəhbərliyi tərəfindən səslənən ismarışları diqqətlə izləyirik. Müəyyən pozitiv ismarışları da eşidirik. Ancaq pozitiv sözlərin və ismarışların verilməsi önəmli olsa da, onların real işlərə transformasiya edilməsi daha önəmli məqamdır”.

Nazir bildirib ki, rəsmi Bakı cari ilin noyabr ayının sonunda İrəvandan sülh müqaviləsi üzrə növbəti təkliflər paketini alıb: “Bir ay ərzində tərəfimizdən işlənmiş təkliflər paketi Ermənistana təqdim olunub. Proses davam edir. Düşünürəm ki, 2024-cü ildə görüşlər keçiriləcək. Biz bu məsələyə real və nikbin baxırıq. Eyni zamanda biz sülh müqaviləsi barədə danışarkən başa düşməliyik ki, bu, hər şeyin 100 faiz həlli demək deyil.

Bu, ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinin əsasını qoya bilər. Bir günün içərisində Azərbaycan-Ermənistan münasibətləri, Azərbaycan-Gürcüstan münasibətləri səviyyəsinə qədər yüksələ bilməz. Ancaq ən azından normal qonşuluq münasibətlərinin əsasının qoyulması və iki ölkə arasında açıq münasibətlərin həllinin prinsiplərini müəyyənləşdirən bir saziş ola bilər və olmalıdır”. Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan isə qeyd edib ki, İrəvan Bakının sülh müqaviləsi ilə bağlı son təkliflər paketini alıb.

Ermənistanın gələcəyi ilə bağlı pessimizst ruhda düşünənlər də var. “Ermənistanla Rusiya arasındakı münasibətlər önümüzdəki illərdə daha da pisləşəcək”. Bunu Yaxın Şərq və Mərkəzi Asiya Araşdırmalar Mərkəzinin direktoru, Rusiya Dövlət Dumasının erməni əsilli keçmiş deputatı Semyon Bağdasarov deyib. “Rusiya artıq başa düşür ki, Nikol Paşinyan Qərb dövlətlərinin köməyi ilə Ermənistanı uçuruma aparır. Mən Qərbə üz tutmağın əleyhinə deyiləm. Lakin bir sual ortaya çıxır: Ermənistan həqiqətən ona kimin kömək edəcəyini anlayırmı? Yox, qətiyyən. Hazırki siyasət davam edərsə, Ermənistan rəsmən mövcudluğunu itirəcək”, – Bağdasarov bildirib.

Politoloq Sultan Zahidov mövzu barəsində danışarkən qeyd edib ki, “dqr”-in “rəhbəri” İrəvanda rəsmilərlə müəyyən görüşlər keçirir, “dqr”nin ləğv olunması ilə bağlı sənəd imzalayır və 2024-cü ildə fəaliyyətlərinin davam edəcəyini bildirir: “Hadisələrin bu formada inkişafı Ermənistana təhdiddir. Azərbaycan öz işini görüb. Antiterror əməliyyatı ilə bütün əraziləri üzərində suverenliyini bərpa edib. Artıq nə sözdə “dqr”nin nümayəndələri, nə də hərbçiləri Azərbaycan üçün ciddi təhdid ola bilər. Hazırda onlar Ermənistan daxilində müxtəlif institutlar yaradır, qərarlar verirlər. Bu isə Nikol Paşinyan hakimiyyəti üçün böyük təhdiddir. Həmin separatçılar Rusiya başda olmaqla digər ölkələrdən müəyyən dəstək də alır. Rəsmi Moskva Paşinyanın hakimiyyətdən getməsini istəyir. Bunun üçün də müxalifəti dəstəkləyir. Həmin müxalifət də revanşist, separatçı ideyalara sarılan şəxslərdir. Şahramanyanın ləğv fərmanından sonra ilk reaksiya verənlər də Paşinyan fraksiyasının nümayəndələri oldu. Nikol Paşinyanın “Mülki Müqavilə” fraksiyası var. Bu partiyanın katibi ötən gün açıqlamasında qeyd etdi ki, Şahramanyan kimdir ki, hansısa qərara imza atsın. Belə bir qərarın legitimliyi ola bilməz, İrəvanda bütün qərarları hökumət verir”.

Paşinyan hakimiyyəti həmin “qərarı” tanısa, bu onun da separatizmə dəstək verdiyini göstərəcək. Bu isə sülh prosesini yubadacaq. Azərbaycan separatizm ideyalarını rəhbər tutan şəxslə sülh müqaviləsi imzalamaq istəməz. Sülh müqaviləsi mətnində də tərəflər arasında ərazi iddiasının olmaması öz əksini tapmalıdır. Paşinyan hökuməti separatçılardan ehtiyat edir və onlara qarşı müəyyən tədbirlər görəcəklər. Separatçıların yenidən nəyəsə cəhd etmələri hüquqi baxımdan mümkün deyil. Bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Lakin separatizm və revanşizm ideyaları daha da genişlənərsə, ermənilərin gələcək nəsilləri də bizə düşmən kimi baxacaqlar. Gələcəkdə yenidən Azərbaycana qarşı silah qaldırma ehtimalı olduğundan birmənalı şəkildə həmin ideyalar bizim üçün təhdiddir.

**V.VƏLİYEV**

---

# “Torpaqlarımız işğaldan azad olunmasaydı,...

***“İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, o cümlədən keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması dövlətimizin əsas prioritetlərindədir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. Deputat sözlərinə belə davam edib: “Bu məqsədlə 2022-2026-cı illəri əhatə edən Böyük Qayıdışa dair Dövlət Proqramı qəbul edilərək uğurla icra olunmaqdadır. Müharibənin başa çatmasından keçən qısa zaman kəsiyində Ağalı, Laçın, Zabux, Sus və Füzuli öz sakinlərini qəbul etməkdə davam edir.***

Digər yaşayış məntəqələrin tikintisi də sürətlə aparılır. Yenidən tikilib bərpa edilən bütün yaşayış məntəqələri çox yüksək standartlara uyğun ərsəyə gəlir və öz ata yurdlarına qayıdan keçmiş məcburi köçkünlər yaradılan şəraitdən çox məmnundurlar. O cümlədən öz doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin işlə təminatı məsələləri də qabaqcadan həll olunur. Beləliklə 2026-cı ilə qədər 140 min keçmiş məcburi köçkünün qaydışını, həm də 100-ə yaxın yaşayış məntəqəsinin yeniudən qurulması təmin ediləcəkdir. Bu gün öz yurdlarına qayıdan hər bir keçmiş məcburi köçkün onlar üçün yaratdığı yüksək şəraitə görə ölkə başçısına öz minnətdarlıqlarını bildirirlər. Bu qayıdışın həyata keçirilməsi üçün torpaqlarını işğaldan azad etmiş Ali Baş Komandana və əsgər-zabitlərimizə minnətdatdırlar. Çünki, torpaqlarımız işğaldan azad olunmasaydı bu gün Böyük Qayıdışdan danışa bilməzdik.

Azərbaycan dünyada çox az ölkələrdəndir ki, müharibədə qalib gəldi və müharibəni başa çatdırandan sonra işğaldan azad olunmuş ərazilərində dərhal yenidənqurma və bərpa işlərinə başlanıldı. Əgər ölkəmizin yetərli iqtisadi gücü olmasaydı nə torpaqımızı işğaldan azad edə bilərdik, nə də qayıdışımızı təmin edə bilməzdik. Bu gün Azərbaycan hətrtərfli inkişaf edir. 30 il ermənilərin viran qoyduğu torpaqlara da yenidən həyat qaytarılır, həm də bütün Azərbaycanın inkişafı təmin edilir. Bu uğurların müəllifi ancaq Prezident İlham Əliyevdir”.

**A.Vəli**




# “Radikal müxalifətin “oxuduğu köhnə bayatılara” ictimai münasibət yaxşı deyil”



**MÜNASİBƏT**

“Radikal müxalifət seçkiyə qatılsa, bu, onların biabırçı məğlubiyyətlər seriyasının finalı olacaq. Buna görə də, özlərinin fəaliyyətlərini təqdim edərkən müxtəlif gözəgəlimli epitetlərdən istifadə edən və az qala “ana müxalifət” adını monopoliyaya almaq istəyən qüvvələr seçkini boykot edir. Boykot seçimi müxalifətin siyasi səhnədəki məğlubiyyətinin üstünü örtən bəhanədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aqşin Kərimov deyib. Aqşin Kərimov sözlərinə belə davam edib: ”Müxalifət nəinki seçkidə, ümumilikdə Azərbaycan ictimai-siyasi atmosferində məğlubdur, bunun səbəblərini aramaq və təhlil etmək üçün ayrıca bir kitab yazmaq lazımdır. Hər halda, səbəblərindən asılı olmayaraq, müxalifətin seçkilərdə iştirak etməmək üçün bəhanələrindən sonra onlara adi texniki suallar ünvanlamaq lazımdır.

Necə olur ki, sən müxalifətsən, hakimiyyətə iddian olduğunu deyirsən, amma seçkidə iştirak etmirsən? Seçki hakimiyyətə gəlmək üçün ən sivil və demokratik yoldur, yaxşı, sən bu prosesdə iştirak etmirsənsə, onda hansı meyar və hərəkətlərlə hakimiyyətə iddialısan?

Müxalifət onsuz da dərinləşən təzadların içərisində itib-batırdı, Azərbaycan Ermənistan üzərində qələbə qazandıqdan və Azərbaycan Qarabağda separatizmi məhv etdikdən sonra isə müxalifətin səsi daha da cırlaşdı.

Bu cırlıqla onlar seçkiyə gedə bilməzlər, çünki onlara nə inam var, nə də həmin qüvvələrin ciddi bir elektoratı mövcuddur. Biabırçılıq burulğanında siyasətin boşluğuna düşəcəklərini anlayan qüvvələr indi özlərinin mübariz obrazlarını yaradıb daha bir neçə onillik müxalif kürsünü zəbt etmələri üçün bəhanələrə girişirlər. Ancaq müxalifətin oxuduğu köhnə bayatılara ictimai münasibət heç də yaxşı deyil”.

**Ayşən Vəli**

# “Yaşıl dünya naminə həmrəylik ili”



2023-cü ili başa vurmağa saylı günlər qalıb. Hər il olduğu kimi bu ili də Azərbaycan xalqı böyük qələbə və nailiyyətlərlə başa vurur. Bu il bizim üçün ən əsası ona görə yaddaqalan və uğurlu il kimi tarixiləşdi ki, xalqımız böyük təntənə ilə Azərbaycanın görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd etdi. Ölkə həyatının bütün sahələrini əhatə edən misilsiz xidmətləri ilə adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmiş və xalqın və ölkənin taleyində əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyev zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu olaraq adını əbədiləşdirdi. 2023-cü il ölkəmizdə Azərbaycan Prezident İlham Əliyevin Sərəncamı əsasında ”Heydər Əliyev İli” elan edildi. Bu gün isə Azərbaycan Respublikasında 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncam iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi daşıyır. Sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcəkdir.



Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.





### ”AĞILLI ŞƏHƏR”, ”AĞILLI KƏND” KİMİ İNNOVATİV YANAŞMALAR TƏTBİQ EDİLİR

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Sənəddə qeyd edildiyi kimi, yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

### ”BEYNƏLXALQ BİRLİK DÜNYANIN BÜTÜN ÖLKƏLƏRİDİR”

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ”COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.” Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Təbii ki, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir.

COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb. Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Bu, tədbir Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, beynəlxalq birlik 30-40 ölkə deyil: ”Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir. İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik”.

### ”BİZİM GÜNDƏLİYİMİZ YAŞIL ENERJİ İLƏ BAĞLIDIR”

Vurğulayaq ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub.

COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanır.

Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. ”Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident bildirib.

Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# Uğursuz, yanlış siyasəti ilə MAKRON PARİSİ "PARTLADIR"

***Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsinin Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən ifşa olunması rəsmi Paris üçün çox böyük zərbə hesab olunur. Fransanın casus şəbəkəsini ifşa edilməsi Makron administrasiyasının rəsmi Bakıya qarşı açıq hücuma keçməsi deməkdir və Parisin qərəzli mövqeyini bir daha isbatlayır. Bu isə o deməkdir ki, prezident Emmanuel Makron özünün uğursuz siyasəti, ədalətsiz mövqeyi, Azərbaycana qarşı ikili yanaşması ilə ölkəsinin onsuz da yox dərəcəsində olan nüfuzunu tamamilə heçə endirir və bu da Parisin zədələnmiş imicini artıq darmadağın edir.***

Doğrudur, bütün dünyada kəşfiyyat xarakterli fəaliyyətin mövcud olması danılmazdır və həmin fəaliyyət pərdəarxası olur. Eyni zamanda, həmin kəşfiyyat xarakterli fəaliyyət müdafiə və mühafizə məqsədi daşıması fonunda başadüşüləndir, amma qərəzli casus şəbəkəsi, ümumiyyətlə, qəbuledilən deyil. Həmin casus şəbəkəsinin ifşa edilməsi bütün dünyada bir rüsvayçılıq kimi qəbul edilir. Ümumiyyətlə, casus ifşa olunduğu zaman bir çox niyyətlər də üzə çıxır və ifşa olunur. Məhz elə bu baxımdan da casus şəbəkəsinin ifşa olunması şəbəkəni təşkil edən ölkə üçün heç də adi hal deyil və bir çox niyyətlərin üzə çıxması, ifşa olunması baxımında böyük zərbədir. İstənilən halda casus şəbəkəsinin ifşası ilə yanaşı, bir çox məqamların da ortaya çıxacağının qaçılmaz olması fonunda prezident Makron özü indi hamıdan yaxşı bilir ki, daha hansı əməllərinin üstü açılacaq və daha hansı səviyyədə rüsvay olacaq. Hətta onu da bilir ki, bu əməli rəsmi Paris üçün də yaxşı heç nə vəd etmir və ən azından beynəlxalq miqyasda qınanılması qaçılmazdır. Ola bilsin ki, ölkənin öz daxilində də bu vəziyyətlə barışılmasın və siyasi fikir ayrılıqları Parisdə hansısa bir "partlayış" da yarada bilər.

Fransızların casus şəbəkəsinin ifşa edilməsi iki ölkə arasında kəşfiyyat müharibəsinin aktiv fazaya keçdiyindən xəbər verir. Bu həm də ondan xəbər verir ki, Fransanın açıq müstəvidə həyata keçirdiyi anti-Azərbaycan siyasəti fonunda Bakı-Paris xəttində münasibətlər gərginləşməkdədir. Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, münasibətlərin gərginləşməsi, məhz Azərbaycanın 44 günlük müharibədə qələbə qazanmasından, Ermənistanı məğlubiyyətə uğratmasından, erməni baş nazir Nikol Paşinyanın təslimçilik sənədi sayılan kapitulyasiya sənədini imzalamasından, işğal altında olan ərazilərini işğaldan azad etməsindən, terrorçuluğun kökünü kəsməklə, təhlükəsizliyi təmin etməsindən sonra daha çox diqqəti cəlb edir. Çünki Cənubi Qafqazda təhlükəsizliyin, sabitliyin təmin edilməsini Fransa həzm edə bilmir və buna görə də Azərbaycana qarşı açıq şəkildə qərəzli mövqe nümayiş etdirir. Məhz belə bir qərəzli mövqeyin də heç bir şəkildə izahı ola bilməz və istənilən halda buna görə bir hesab veriləcək günün olacağı qətiyyən təkzib edilə bilməz.

Məsələ burasındadır ki, Fransanın kəşfiyyat xarakterli fəaliyyəti ciddi qanun pozuntusu, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması kimi qeydə alınmaqdadır. Fransanın Azərbaycandakı səfirliyinin casus yuvası olaraq istifadə edilməsi heç bir normaya sığmır. Səfirlik əməkdaşlarının digər ölkələrin diplomatlarını ələ almaq istiqamətində istənilən əməli qəbulolunmazdır. Diplomatik fəaliyyəti kəşfiyyat məqsədilə istifadə etmək, artıq bütün dünyada qəbul olunmuş normalara qarşı gəlməkdir və Fransanın da məhz diplomatik fəaliyyəti kəşfiyyat məqsədilə istifadə etməsi Vyana Konvensiyasına məhəl qoymaması, həmin Konvensiyanı pozması deməkdir. Diqqətə çatdıraq ki, səfirliklərin fəaliyyəti barədə konkret olaraq, Vyana Konvensiyasında qeyd olunur və diplomatik əlaqələr burada



öz əksini tapır. Amma səfirliyinin casus yuvası olaraq istifadə edilməsi Vyana Konvensiyasında qətiyyən öz əksini tapmır, əksinə, bunun qanun pozuntusu olduğu bildirilir. Birmənalı şəkildə bildirilir ki, diplomatların kəşfiyyat işini icra etməsi beynəlxalq qanunla qadağandır. Deməli, Fransa kimi bir Avropa dövləti, özü də qanundan, hüquqdan, ali dəyərlərdən dəm vuran bir ölkə diplomatiyanı casusluq fəaliyyəti üçün istifadə etməklə, təkcə Vyana Konvensiyasını deyil, beynəlxalq hüququ da kobud şəkildə pozub. Heç şübhəsiz ki, belə bir pozuntuya yol verilməsi dünya ictimaiyyətinin də, beynəlxalq təşkilatların da diqqətindən yayınmayıb. İstənilən halda bununla bağlı rəsmi Parisə lazımi təpki göstərilməlidir. Ümid edirik ki, yaxın zamanda beynəlxalq təşkilatlar tərəfindən lazımi tədbirlər görülər. Hər halda, bütövlükdə Avropa İttifaqı məhz Vyana Konvensiyasın kobud şəkildə pozulmasına görə Fransaya təbrik məktubu göndərməz.

Rəsmi Paris tərəfindən son vaxtlar düşünülməmiş addımların atılması artıq adi hal alıb. İşğalçı deyil, işğala məruz qalan tərəfi hədəfə alan Fransa ali dəyərləri hesaba da almır. Ədalətsiz qərarları ilə, ikili yanaşması və ermənipərəst mövqeyi ilə həmin o Avropa ölkəsi qanunlara da, beynəlxalq hüquqa da, normalara da açıq-aşkar şəkildə hörmətsizlik edir. Öz ölkəsinin vətəndaşlarının vəziyyəti barədə bir dəfə də düşünməyən Fransa prezidenti özünü guya erməni əsillilərin taleyinə laqeyid olmayan kimi göstərməklə, əslində, bilərəkdən işğalçılıq niyyətində olanları ruhlandırmaq, yeni münaqişələrə sövq etmək niyyəti güdür. Heç şübhəsiz ki, bunun bir pozuculuq niyyəti olduğu, sülhə, təhlükəsizlik mühitinə zərbə hesab olunduğu bəllidir. Yəqin ki, münaqişənin yenidən qızışmaması, sülh təşəbbüsünün dəstəklənməsi fonunda Avropa İttifaqı öz kəskin mövqeyini bildirmiş olar. Yəni, rəsmi Parisə artıq ciddi şəkildə xəbərdarlıq belə edilə bilər və çox güman ki, bu da fransızlar üçün heç də arzuolunan hesab olunmur. Makron bilməlidir ki, fransızlar üçün arzuolunmaz dediyimiz istənilən bir halın, nəticə etibarı ilə Fransada ən azından hansısa bir narazılığa səbəb olması, toqquşma yaratması, partlayış doğurması tamamilə gözləniləndir. Onu da bilməlidir ki, bunun da səbəbkarı məhz onun özüdür və cavabı da özü verməli olacaq.

Fransa kimi bir dövlətin nüfuzundan, imicindən artıq danışmaq belə mümkün deyil. Afrikada kolonial siyasət aparan Fransanın törətdiyi cinayətlərin fonunda bir Avropa ölkəsinin onsuz da imici yox dərəcəsindədir. Bununla belə, Fransa bir milyondan artıq insanın kütləvi şəkildə qırğınını törədən bir ölkə kimi tanınmaqdadır. Azərbaycan Prezidenti cənab İlham Əliyev məhz Fransa prezidenti Emmanuel Makrona ölkəsinin qırğınlar törətməsinə görə həmin o qırğına məruz qalan xalqlardan üzr istəməsini tövsiyyə etmişdi və görünür tarixi şansdan istifadə etmək onun ağlına da yerləşmədi. Şübhəsiz ki, həmin xalqlar Fransanın törətdiyi hadisələri unudan deyil və baxmayaraq ki, Makron buna dırnaqarası yanaşdı, tarixin hansısa bir dönəmində rəsmi Paris buna görə bütün dünya qarşısında cavab verməli olacaq. Hətta o zaman rəsmi səviyyədə üzr istənilsə belə bu, vəziyyəti qətiyyən dəyişməyəcək.

Fransada hökumətin pensiya sistemini yenidən təşkil etmək planlarına etiraz olaraq, həmkarlar ittifaqları tərəfindən bu il koordinasiya olunan irimiqyaslı etiraz aksiyalarını yaxşı xatırlayırıq. Prezident Emmanuel Makronun ölkədə minimum təqaüd yaşı ilə bağlı qaldırdığı təşəbbüsə qarşı dəmir yolları, məktəblər, xəstəxanalar və aviasiya sistemi kimi nəhəng sektorların işçilərinin tətilləri elə bir şəkil almışdı ki, bunu heç rəsmi Paris də qətiyyən unudan deyil. İrimiqyaslı nümayişlər fonunda Parisdə normal həyat axarının pozulduğuna, həm də aksiyaçıların tələbləri qarşısında aciz qaldığına görə Makron hökumətinin nümayişlər səngiyənədək vətəndaşlara evdən işləmələri üçün çağırış etməyə məcbur olması da bu baxımdan təsadüfi deyildi. Bu, xüsusilə, etirazçı kütlənin təzyiqləri qarşısında geriyə atılan ilk addım kimi qiymətləndirilməsi demək idi. Hər halda, həmin dövrdə etirazçıların sayının bir milyondan artıq olmasını nə Makron, nə də onun hakimiyyəti komandası yadından çıxarmaz və əgər Fransa prezidenti bunu yadından çıxarmayıbsa, mütləq şəkildə dərk edir ki, istənilən məqamda belə bir halla qarşılaşa bilər.

Hələ ötən ildən bəri elektrik enerjisinin kəskin bahalaşmasının, davam etməkdə olan inflyasiyanın kənd təsərrüfatı sahələrinə, özəl biznes sektoruna mənfi təsir göstərməsi fonunda Fransa iqtisadiyyatı üçün ağır bir dövr olduğunu elə bütün dünya ictimaiyyəti yaxşı bilir. Onu da yaxşı bilir ki, inflyasiya, bahalaşma, uğursuz islahatlar Fransa adlı bu Avropa ölkəsinə yaxşı heç nə vəd etmir və Parisdə bununla bağlı doğru, dürüst, məqsədyönlü fəaliyyət planı hazırlanmalıdır. Hazırlanmalıdır ki, gözlənilən hansısa problemli halların qarşısı öncədən, tam vaxtında alınsın. Heç şübhəsiz, bütün dünya ictimaiyyəti belə bir fikirdədir ki, Fransa hakimiyyəti başqa ölkələrin işlərinə burun soxmaqdansa, öz daxili məsələlərini, mövcud olan həlli vacib problemlərini həll etsə daha məntiqi olar. Yəqin ki, bir qədər öncə haqqında artıq qeyd olunan aksiyalar zamanı fransız polisinin etirazçılarla kobud davranışı, daha konkret desək, zorakı metodlarla aksiyanı dağıtmağa cəhd etməsi, aksiya iştirakçılarına qarşı gözyaşardıcı qazdan və dəyənəklərdən istifadə etməsi, bu zaman etirazçılarla polis arasında toqquşmaların baş verməsi, nəticədə bir neçə aksiyaçının ağır xəsarət alması bir daha təkrar olunmasın deyə, Makronun başqa ölkələr deyil, elə öz ölkəsi ilə maraqlanması, öz ölkəsində bir kəşfiyyat aparması, tam yerinə düşər. Əks halda, bunun acısını Parisdə partlayış xarakterli etirazlar başladığı zaman mütləq şəkildə dadmalı olacaq.

Dünyaya demokratiya dərsi keçməyə iddialı olan Fransanın mərkəzində vətəndaşların dəyənəklə döyülməsindən belə nəticə çıxır ki, söz azadlığı, insan haqları, demokratiya kimi ali dəyərlər Fransa kimi ölkələrin əlində yalnız başqa dövlətlərə təzyiq etmək üçün vasitədir. Əks halda, rəsmi Paris "dəyənək demokratiyası" siyasəti yeritməz və öz ölkəsinin vətəndaşlarına qarşı qəddarlıq nümayiş etdirməz və bu gün həmin qəddarlığının fonunda da hansısa ölkənin daxili işinə burun soxmazdı. Qeyd edək ki, Fransada keçirilən sorğunun nəticələri təsdiq edir ki, əhalisinin təxminən beşdə üçü Fransa prezidentinin təşəbbüslərinə, uğursuz islahatlarına qarşıdır. Onun heç də qəbul edilməyən islahatlarının, təşəbbüslərinin kütləvi etirazla qarşılanması Fransa üçün artıq rast gəlinən bir təcrübədir və bu baxımdan hələ bundan sonra daha nələr olacağı da təxmin edilə bilər. Yəni, Parisdə istənilən anda hansısa bir hadisə artıq katalizator rolunu oynaya bilər və bu da Fransa hakimiyyətinin bütün uğursuzluqlarını, yanlışlıqlarını qabardaraq ortaya fəlakətli bir vəziyyət çıxara bilər. Diqqətə çatdıraq ki, ekspertlərin özlərinin belə fikrincə, Makron hökumətinin uğursuz fəaliyyəti, yanlış siyasəti etiraz aksiyalarını istənilən anda ümumxalq hərəkatına çevirə bilər. Bu da o deməkdir ki, Parisdə hər an bir toqquşma, qarşıdurma, bir hərəkat ortaya çıxa bilər, hansıki partlayış səviyyəsində olacağı gözlənilən həmin hal prezident Emmanuel Makronun özünün də siyasi aqibətinin necə olacağını bəlli edir.

Bəli, Fransa son illər tarixinin ən biabırçı dövrünü yaşayır və bu biabırçılığın yaşadılmasında prezident Emmanuel Makronun xüsusi "payı" var. Afrika və Cənubi Qafqazda ciddi uğursuzluğa düçar olan bir Avropa ölkəsini uğursuzluqlara da düçar edən məhz Fransa prezidentinin uğursuz, yanlış fəaliyyətidir. Əlbəttə ki, fransızlar nə bu biabırçılıqlarına, nə də uğursuzluqlarına görə Emmanuel Makronu bağışlamayacaqlar. Nə zamansa bu bir partlayışa səbəb olacaq. Hacansa fransızlar Parisin küçə və meydanlarında hesab sormaq üçün toplaşacaqlar. Atların, itlərin, rezin güllələrin, gözyaşardıcı qazın hesabına bu dəfə də narazılıq dalğasını yatıracaqlarını düşünürlərsə, yanılırlar. Hər halda, bu qədər uğursuzluqlarına, ölkələrinin nüfuzunun yox dərəcəsinə düşməsinə, rüsvayçı durumuna görə bir gün fransızların səbr kasası dolacaq. Bir gün bu Avropa ölkəsində inqlab belə olsa kimsə təəccüblənməz. Çünki Paris artıq gərgin vəziyyətdədir. Xüsusən də, Fransa şəbəkəsinin de-şifrə edilməsi, bununla da yeni faktların ortaya çıxması fonunda istənilən anda bu gərgin vəziyyət partlayışla nəticələnə bilər. Yəqin ki, dərvişin çox uzaq bir məsafədən Parisi partlatdığına inanan yoxdur və hər kəsə bəllidir ki, Parisi elə o zaman da özləri partlatmışdılar və "partlamasının" səbəbkarı da həmin ölkənin o zamankı hakimiyyəti idi. Elə indi də eyni şəkildə, eyni prizmadan, eyni rakursdan yanaşdıqda aydın olur ki, bu dəfə də hazırkı Fransa hakimiyyəti, ələlxüsus da hakimiyyətin başında duran Emmanuel Makron öz yanlış siyasəti, uğursuz fəaliyyəti ilə artıq Parisi partladır...

***İnam***

# “Prezidentin Ağdama səfəri onu göstərir ki,..”



*“Torpaqlarımız işğal altında olduğu dövrdə Prezident İlham Əliyev öz ad günlərində məcburi köçkün və qaçqınlar üçün tikilmiş yaşayış komplekslərinin açılış mərasimlərində iştirak edir və onlar qarşısında çıxış edərək torpaqlarımızı geri qaytaracağımızı, növbəti görüşləri işğaldan azad edilmiş torpaqlarda keçirəcəyini bildirirdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.*

Deputat sözlərinə belə davam edib: “Üç ildir ki, torpaqlarımız azaddır və ermənilərin 30 il dağıdaraq viran qoyduğu ərazilər yenidən qurlaraq bərpa olunur. Ölkə başçımız son üç ildə öz doğum günlərində işğaldan azad olunmuş ərazilərdə keçmiş məcburi köçkünlər üçün tikilmiş yaşayış məntəqələrin açılışlarında və yeni layihlərin təməl qoyma mərasimlərində iştirak edir. Bu ilin 24 dekabrı da ermənilərin daşı daş üstündə saxlamadığı və Qafqazın Xirosiması adlandıran Ağdamın yenidən qurulması və bərpası ilə bağlı keçirilən mərasimləri ilə zəngin oldu.

Ölkə başçımız Ağdama səfəri çərçivəsində Ağdam qovşaq yarımstansiyasını, Xaçınçay Su Anbarını, uzunluğu 44,5 km olan Bərdə-Ağdam yolunu istifadəyə verdi. Ağdam şəhərinin 4 və 5-ci yaşayış komplekslərinin, Mərkəzi Parkın, Qiyaslı, Salahlı, Baş Qərvənd kəndlərinin təməlləri qoyuldu, Ağdam Şəhərinin daxili yollarında və İmarət kompleksində aparılan yenidən qurma və bərpa işləri ilə tanış olaraq tapşırıqları verdi.

Cənab Prezident İlham Əliyevin xüsusi tapşırıqları və nəzarəti ilə Ağdam rayonu ən yüksək səviyyədə yenidən qurulub bərpa edilir. Keçmiş məcburi köçkün həyatını yaşamış ağdamlılar dünyanın ən gözəl yaşayış məntəqələrinə qayıdacaqlar. Ağdam şəhəri özünün arxitekturası və dizaynı ilə xüsusilə fərqlənəcək. Ölkə başçımızın işğaldan azad olunmuş ərazilərə etdiyi mütəmadi səfərlər o ərazilərdə görülən işlərin daha keyfiyyətlə və sürətlə icra olunmasına yol açır. Bəli, son üç ildə dövlət başçımızın və Birinci vitse prezident Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərə etdiyi 100-dən çox səfəri bu əraziləri cənnətə döndərir. İşğaldan azad olunmuş ərazilərdə icra olunan layihələrin səviyyəsi yeni bir Azərbaycan standartını meydana gətirir. Bu standart xalqımızın milli mənəvi dəyərlərini özündə əks etdirməklə müasirliyi özündə birləşdirir.

İşğaldan azad olunmuş ərazilərdə yenidən qurma və bərpa işlərinin yüksək səviyyədə aparılması həm bu ərazilərə qayıdacaq keçmiş məcburi köçkünlərin firavan yaşayışını təmin edəcək, həm də 30 il dövriyyədən kənarda qalmış ərazilər yenidən ümumi iqtisadiyyatımıza reinteqrasiya olunacaqdır. Bu da dövlətimizin gücünü daha da artıracaq. İşğaldan azad olunmuş ərazilərdə icra olunan yenidənqurma və bərpa işləri, o cümlədən keçmiş məcburi köçkünlər üçün ən müasir yaşayış standartlarının icra olunması Prezident İlham Əliyevin siyasətinin təməlində hər bir vətəndaşının rifahının dayandığını göstəricisidir”.



DEPUTAT ŞƏRH ETDİ

***Ayşən Vəli***

# Bayramqabağı bazarlarda vəziyyət NECƏDİR?



***Yeni İlin gəlməsinə artıq bir neçə gün qalıb. Amma bayram ərəfəsində bazarlarda əhalinin istehlak səbətində əsas yer tutan məhsullara tələbatın artması fonunda qiymətlərin də artdığı müşahidə olunur. Bəs, gılin görək, Nəsimi bazarı ətrafında meyvə-tərəvəzlərin qiymətləri alıcıları qane edirmi? SİA olaraq Nəsimi bazarı ətrafında alıcı və satıcılardan alış-verişlə bağlı sorğu keçirmək qərarına gəldik.***

**Satıcı Əli Tarverdiyev:** ”Satışlar normaldır, pis demək olmaz, amma yüksək səviyyədə də deyil. Orta səviyyədən aşağıdır. Qiymətlər bahadır, hər yerdə olduğu kimi. Alış-veriş qiymətlərə görə bir az zəifdir. Alış-veriş bir neçə il əvvəl ayın 20-dən başlayırdı. Artıq 25-dir, səs-soraq yoxdur. Bazarlıq çox zəifdir”.

**Satıcı Seymur Qasımov:** ”Əsas tələbat kartof və soğanadır. Bayram üçün məhsulların sifarişini etmişik, tələbat yoxdur. Alış-veriş zəifdir. Əvvəl məhsul gələn kimi gəlib ləpədən, qozdan alırdılar. İndi isə gündə işlənən tərəvəzləri-kartofu, soğanı daha çox alırlar. Və uşaqlar üçün də meyvə alırlar. Qiymətlərimiz normaldır. Əslində hər yerdə qiymətlər bahadır. Biz ”Meyvəli”dən alırıq, üzərinə qəpik qoyub satırıq. Çox baha qiymət qoymuruq. Sadəcə tələbat yoxdur”.

**Satıcı Aidə Abdullayeva:** ”Alver həmişəkinə baxanda çox zəifdir. Qiymətlər də bahadır, məhsul almağa pul tapa bilmirik. Daha çox göyərti satılır. Pomidor, xiyar isə bahadır. Almaların hər qiymətə olanı var. İran portağalı var ki, digərlərinə nisbətən ucuzdur. Türkiyədən gələn portağallar isə bahadır”.



**Alıcı Elnarə Hüseynova:** ”Qiymətlər fərqlidir, ucuzu da var, bahası da. Hamının büdcəsinə uyğun məhsul var. Biz çalışırıq ki, öz büdcəmizə uyğun alaq. Biz aşağı təbəqəyə aid olduğumuz üçün çalışırıq ki, daha ucuzunu alaq”.

**Alıcı Sərdar Mürsəlov:** ”Qiymətlər burada normaldır, pis, yaxşı dolanırıq. Yeni illə bağlı ümumi çətinlik var. Dünən bir az bayram alış-verişi etdim. Hələ kifayət qədər deyil, yenə də etmək lazım gələcək. Tərəvəzin qiyməti daha bahadır. Məsələn, brokoli 4 manatdır, gül kələmi 2.50 manatdır. Əvvəl balığı 5 manata almaq olurdu, indi isə 7, 12 manata almaq olur”.

**Alıcı Şəlalə Qurbanova:** ”Qiymətlərdə çox da dəyişiklik yoxdur, həmişəki kimidir. Satan baha satmaq istəyir, alan isə ucuz almaq istəyir. Yenə də pis deyil, başqa ölkələrə baxanda bizdə hər şey normaldır. Meyvə-tərəvəzi ala bilirik, hələ bayram alış-verişi etməmişik”.




***Söylü Ağazadə***

# Belaruslu analitik: "Ermənistan üçün Qarabağ məsələsi bağlıdır"

***Belaruslu analitik Yuri Şevtsov "Caliber" analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər və baş verən hadisələr haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***




**- Yuri Vyaçeslavoviç, sizcə, Aİ-nin Ermənistandakı missiyasını genişləndirməkdə məqsəd nədir?**

- Ermənistan Rusiyanın Ukrayna böhranı ilə məşğul olduğunu görüb Qərbdə özünə dayaq axtarır. Digər tərəfdən, Ermənistanda hakimiyyətdə ölkəni və xaricdəki diasporunu birləşdirə bilməyən insanlar var. Hesab edirəm ki, əvvəlcədən İrəvanda Qərbə istiqamətlənmək niyyəti var idi, indi isə bu ideyanı həyata keçirməyə çalışırlar. Amma bundan nə çıxacaq? Məncə, əhəmiyyətli bir şey yoxdur. Avropa İttifaqının özü indi çətin daxili böhran içindədir, onun maraqları Ukrayna və Yaxın Şərqdəki iki müharibə ilə bağlıdır. Ümumiyyətlə, Aİ Cənubi Qafqazda maraqlı deyil, orada başqa oyunçular var. Ona görə də hesab edirəm ki, Aİ Ermənistandakı bu missiya üçün müəyyən vəsait ayıracaq və orada da həmin resursları mənimsəyən insanlar olacaq. Və ümumiyyətlə, bütün məsələ bundan ibarətdir.

**- Bildiyiniz kimi, son vaxtlar Ermənistan KTMT-nin fəaliyyətlərinə daha çox məhəl qoymur. O, bu təşkilatı tərk edəcək, yoxsa Moskvanı şantaj etməyə davam edəcək?**

- Mürəkkəb məsələdir. Ermənistan KTMT-dən çıxmağı imitasiya etsə də, nədənsə bu ssenari mənə çətin görünür. Düşünürəm ki, bu, daha çox Qərbə qarşı jestdir, başqa bir şey deyil. Tutaq ki, Ermənistan KTMT-dən çıxdı, bəs bundan sonra nə olacaq? Onlar AB-nin hərbi çətiri altında olmayacaq, həmçinin NATO-nun hərbi çətiri altında da olmayacaqlar. KTMT bütün çatışmazlıqları ilə birlikdə hələ də çoxlu əməkdaşlıq istiqamətlərinə malik hərbi blokdur. Məncə, ermənilər bu bloku əvəz edəcək qüvvə tapmayacaqlar. Ona görə də rasional baxımdan Ermənistanın KTMT-dən çıxmasına ehtiyac yoxdur.

Ermənistanda hakimiyyətdə, fikrimcə, ölkədə onsuz da ağır olan vəziyyəti daha da gərginləşdirən insanlar var. Onlar müstəqil dövlətin alətlərini müdafiə etməlidirlər, amma müdafiə etmirlər. Ermənistanın Rusiyada çox müsbət qəbul edildiyi vaxtı az qala qaçırdılar, bu çox böyük amildir. Məsələn, Belarus prezidenti Aleksandr Lukaşenko eyni dərəcədə mürəkkəb regionda fərqli yol tutdu. O, güclü müstəqil dövlət institutu qurdu və kritik anda, yaxınlıqda böyük müharibə başlayanda bu, işə yaradı. Taktiki silahlar Rusiyadan Belarus ərazisinə gətirildi ki, bu da müharibəni Ukraynadan Belarus ərazisinə yaymaq istəyənləri xeyli soyutdu. Lakin ermənilər Fransa və ABŞ-a arxalanaraq başqa yol tutdular ki, bu da özləri üçün bir çox problemlərə səbəb oldu. Nəticədə onlar Rusiyanın dəstəyinin əhəmiyyətli hissəsini itirdilər, müharibədə məğlub oldular və Qarabağdakı son döyüşdə diasporaları heç bir dəstək vermədi. Bu siyasətin nəticəsi olaraq Ermənistanın Qərbə doğru kursu ermənilər üçün uğursuz oldu.

**- Rusiyanın Gümrüdəki hərbi bazasının taleyi necə olacaq?**

- Əgər Ermənistan KTMT-dən çıxsa, o zaman çox güman ki, bu bazanı da çıxarmaq lazım gələcək. İndi orada heç bir əhəmiyyəti yoxdur.

**- O zaman Ermənistana "təhlükəsizlik zəmanəti"ni kim verəcək?**

- Belə olan halda bütün ümid erməni xalqınadır. Ermənilər özlərində daxili nizamsızlıq dəbdəbəsinə yol verdilər və Rusiya ilə Qərb arasında atışma nəticəsində heç bir müsbət şeyə nail olmadılar. İndi Paşinyan Rusiyaya tranzit yolu ilə Ermənistan iqtisadiyyatını hansısa yolla gücləndirməyə çalışır, mən sanksiyaya məruz qalan malların ixracını nəzərdə tuturam, bu, ümumilikdə paradoksdur. Yəni, bir tərəfdən İrəvan Avrasiya strukturlarından imtina etdiyini bəyan edir, eyni zamanda, Rusiya Federasiyasına böyük miqdarda sanksiya tətbiq edilən malların tranziti hesabına iqtisadiyyatını gücləndirir. Belə siyasət çətin ki, Ermənistan üçün yaxşı bitsin.

**- Ermənistan faktiki olaraq Cənubi Qafqazda Fransanın maraqlarının dirijoru rolunu oynayır. Parisin bölgəmizdə sıxışdırmaq şansı varmı?**

- Parisin Qafqazda söz sahibi olmaq şansı yoxdur. Ermənistanın özü üçün isə Fransa yalnız bəzi əmək miqrantlarının yerləşdirilməsi şəklində dəstək verə bilər, başqa heç nə.

**- Amma Fransa Ermənistanı intensiv şəkildə silahlandırır...**

- Söhbət inkişaf etmiş ölkələrdən silah tədarükünə gəldikdə, Fransadan Ermənistana tez-tez həmin ölkələrin ərazisindən gələn müxtəlif borclanma formalarından ixracın bu cür subsidiyalaşdırılmasına qədər istifadə olunur.

**- Aydındır ki, Fransanın Ermənistana hərbi tədarükünün arxasında bizim regionda öz məqsədləri dayanır. Tədricən Ermənistanın daimi silah tədarükçüsünə çevrilən Hindistanın maraqları nədən ibarətdir?**

- Geosiyasətdən başqa hər şeydə. Hindistan Cənubi Qafqaza heç vaxt ciddi maraq göstərməyib. Onun Hind okeanı regionunda, Əfqanıstanda, Mərkəzi Asiyada maraqları var, Cənubi Qafqazda deyil. Ola bilsin ki, Hindistan hansısa silahlarını satmağa çalışır, görünür, hindistanlı iş adamları hansısa yolla Ermənistan büdcəsinin altına girə biliblər.

**- Cənubi Qafqazda gələcək prosesləri necə görürsünüz?**

-Bu, Ukraynadakı müharibənin nəticəsindən asılıdır. Əgər Rusiya bu gün gördüyümüz aşkar uğurları görməkdə davam edərsə, çox güman ki, Ermənistana diqqət yetirməyə vaxtı olacaq. O zaman İrəvanda bu nəhəng, erməni standartları ilə Qərbdən Rusiyaya sanksiyalaşdırılan ixracla məşğul olan dairələr də özünü siyasi baxımdan büruzə verəcək. Ermənistanda güclü qərbyönümlü qərəzlə yanaşı, rusiyapərəst qüvvələrin də olmasını gözdən salmaq olmaz. Amma hər halda Qarabağ məsələsi bağlıdır, Şimal-Cənub dəhlizi inkişaf edir, Zəngəzur dəhlizinin də işləməsi məntiqlidir, ondan sonra Türkiyə Şimal-Cənub layihəsində iştirak edəcək. Bütün bunlar birlikdə ŞƏT-in inkişafına uyğun olaraq Cənubi Qafqazda beynəlxalq münasibətlərin kompleks yenidən qurulmasını ifadə edir.

Söhbət böyük bir iqtisadi ittifaqdan gedir, onun çərçivəsində böyük Yaxın Şərqin bütün geosiyasəti yenidən qurulur. İran Səudiyyə Ərəbistanı ilə yaxınlaşır və Moskva, Tehran və Pekin öz aralarında əməkdaşlığı kəskin şəkildə artırır.

**- Və nəhayət. Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanmasına münasibətiniz necədir?**

- Ermənilər Azərbaycanla sülhə hazır olduqlarını deyirlər. Beləliklə, ümid edək ki, sülh sazişi üfüqdə olacaq.

***Tərcümə - Elçin Bayramlı***

## "Nar" satış şəbəkəsinin təmsilçiləri ilə görüş keçirib




Mobil operator ölkə boyunca satış xidmətlərini həyata keçirən diler təmsilçiləri ilə illik yekun görüşü keçirdi. Görüşzamanı "Nar"ın satış göstəriciləri, tətbiq etdiyi yeniliklər və əldə etdiyi nailiyyətlər təqdim olunub. Üstün müştəri məmnuniyyətinin təmin edilməsi və sərfəli qiymət siyasəti nəticəsində "Nar" yeni qoşulan abunəçi sayı və eləcə də, ümumilikdə satış göstəricilərini yüksəltməyə nail olduğu haqqında məlumat verilib. Bununla yanaşı, 2023-cü ildə Bakı, Gəncə, Gədəbəy, Goranboy, Göygöl, Kürdəmir, Laçın, Mingəçevir, Neftçala, Qəbələ, Şəki, Şərur, Tovuz və Zərdab şəhərlərində yenilənmiş "Nar" diler mağazaları uğurla abunəçilərə təqdim olunub.

Tədbirdə Laçın rayonunda və həmçinin, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri iştirak ediblər. Dövlət rəsmiləri Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan işgüzar mühit və azad edilmiş ərazilərin biznes potensialı haqqında görüş iştirakçılarını məlumatlandırıblar.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



**İLHAM**

## Əli Kərimli ucuz və hiyləgər çağırışının bədəlini ödəyəcək

***İnsanda ağıl, sağlam düşüncə, təmiz vicdan yaxşı şeydir. Olmadısa, vay o insanın halına. Səbəbsiz yerə deyilmir ki, milyardlarla puldan, var-dövlətdənsə həyat yolunda yoldaşın ola biləcək ağılın olsa, daha yaxşıdır. Dahi şairimiz Nizami Gəncəvi deyirdi: "İnsana arxadır onun kamalı, ağıldır hər kəsin dövləti, varı". Təəssüf ki, bugünkü müasir dünyada ağılına güvənənlərin sayı bir o qədər çox deyil. Yəni, hər cür çirkin vasitə və üsullardan istifadə etməklə var-dövlət əldə etməyə daha çox cəhdlər göstərilir. Hətta siyasi həyatda vurnuxanlar belə özlərinin bilik və bacarıqlarına deyil, kimlərinsə dəstəyinə arxalanırlar.***

Misal olaraq, bu gün Azərbaycanın dağıdıcı müxalifətinin pul qazanmaq üçün hər fürsətdə xarici maraqlı dairələrlə əməkdaşlıq etmələrini göstərmək olar. Hansı ki, həmin məkrli xarici dairələr Azərbaycanın beynəlxalq aləmdə qazandığı yüksək imicini ləkələməyə, qazandığı uğurlara kölgə salmağa çalışırlar. Dağıdıcı müxalifət həmin xarici qüvvələrin Azərbaycan dövlətinə olan qərəzli münasibətini bildikləri halda onlarla əməkdaşlıq edirlər. Nədən ki, onlardan maddi və mənəvi dəstək alırlar. Təbii ki, bu yerdə ağıla böyük zərurət var. Ağıllı insan dövlətinə, xalqına qarşı düşmən münasibət sərgiləyən qüvvələrlə əməkdaşlıq etməz. Görünür, dağıdıcı müxalifət üçün ağıldan öncə puldur. Dəfələrlə sübuta yetirilib ki, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli və digərləri müxtəlif xarici fondlardan maddi dəstək alıblar. Təbii ki, alınan pullara görədir ki, T.Yaqublu, C.Həsənli eynən Koçaryan, Sarkisyan kimi danışırlar. Fikir verin, ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan məkrli xarici qüvvələrin, erməni lobbisinin sabun köpüyündən başqa bir şeyə yaramayan hay-küyü ilə üzləşib. Bu məqamda Ə.Kərimli, T.Yaqublu, C.Həsənli, F.Qəhrəmanlı və digərləri də eyni ilə erməni revanşistlərisayağı uydurmalar səslendirirlər. Əli Kərimli yediyi çörəyə, içdiyi suya, bəhrələndiyi imkanlara əhəmiyyət vermədən Azərbaycana qarşı sanksiyaların tətbiq olunması üçün beynəlxalq təşkilatlara çağırışlar edir. Hətta həyasızcasına Koçaryan-Sarkisyan cütlüyünün torpaqlarımızı işğal etmələrinə haqq qazandırır. Deyir ki, "Koçaryan-Sarkisyan cütlüyünün Azərbaycan torpaqlarını işğal etməsi bizim Vətən müharibəsində qazandığımızdan daha böyük Qələbə idi".

Ə.Kərimli belə bəd əməlləri ilə kifayətlənməyib 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərini boykot etmək çağırışları ilə çıxışlar edir. Təbii ki, boykot mənasız və əsassız iddiadır. Bu acizliyin və məğlubiyyətin etirafıdır. Çünki özünə inamı olan, sosial bazasına arxalanan siyasətçi seçkilər kimi önəmli tədbirdən kənarda qalmaz. Nəzərə alınmalıdır ki, boykot siyasi rəqabət metodu deyil, qərəzli informasiya manipulyasiyalar üçün münbit şərait yaradan siyasi texnologiyadır. Söz yox ki, anormal qərarın qəbul edilməsində xarici qüvvələrin təsiri və dəstəyi mövcuddur. Ona görə ki, seçkilərin keçirilməsi barədə qərarın verilməsindən dərhal sonra Avropadakı makronçular hərəkətə keçərək Azərbaycana qarşı qarayaxma kampaniyasını genişləndirdilər. Düzdür, onların ölkəmizdə meydan sulamaları hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alında. Yəni, fransız casus şəbəkəsinin ifşa olunması ilə planlaşdırılan təxribatların qarşısı alındı. Təəssüf ki, yenə də Əli Kərimli və trol dəstəsi məsuliyyətdən kənarda qaldılar. Halbuki, Ə.Kərimli, C.Həsənli və digərləri ABŞ-ın və Fransanın qaranlıq dairələri ilə birgə fəaliyyət göstərirlər. Daha doğrusu, AXCP, Milli Şura funksionerləri atdıqları addımları, verdikləri qərarları ABŞ-ın və Avropanın müəyyən dairələrinin tapşırıqları əsasında atırlar. Qarşılığında isə Ə.Kərimli maliyyə yardımları əldə edir. Bəzən maliyyə vəsaiti almalarını da gizlətmirlər. Misal olaraq Milli Şuranın sədri Cəmil Həsənlinin utanıb, çəkinmədən "Mən hər ay SOROS Fondundan 200 ABŞ dolları maaş almışam", - deyə bildirməsini göstərmək olar. Eyni zamanda, dəfələrlə AXCP sədr müavinlərinin Gürcüstan vasitəsi ilə Ə.Kərimliyə böyük məbləğdə pul gətirdikləri zaman kömrükdə saxlanmaları halları olub. Bəli, faktlar və sübutlar göz qabağındadır. Aylar, illəri əvəzləsə də, məkrli, ziyankar əməllər unudulmur və yaddan çıxmır. Ə.Kərimlinin də dövlətə və xalqa qarşı etdiyi riyakarlıqlar, pisliklər heç zaman səhifələrdən silinməyəcək. Nəhayət, bir gün etdiklərinə görə, cavab verməli olacaq.

# “Azərbaycan-Çin münasibətləri Ulu Öndərin dövründən inkişaf etməkdədir”

**“Azərbaycan və Çin arasındakı münasibətlər Ulu Öndər Heydər Əliyevin dövründən inkişaf etməkdədir. Prezident İlham Əliyev də bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün real addımlar atır. Çinin "Bir kəmər, bir yol" layihəsinin iştirakçılarından biri də Azərbaycandır.**



Xüsusilə, Orta Dəhliz layihəsinin genişləndirilməsi üçün Azərbaycan da öz töhfəsini verib. Bütün görülən işlər Çin Xalq Respublikası tərəfindən müsbət dəyərləndirilir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Naqif Həmzəyev deyib. Onun sözlərinə görə, Çin ilə Azərbaycan arasında münasibətlər günü-gündən inkişaf edir və iqtisadi, mədəni, sosial layihələr həyata keçirilir: ”Bütün bunlarla yanaşı, Çin Xalq Respublikasının sədri Si Cinpinin Azərbaycan Prezidentinə qarşı münasibəti hər zaman müsbət olub. İki lider arasında olan dostluq münasibətləri dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsinə mühüm təsir etməkdədir. Sədr Si Cinpinin cənab Prezidenti doğum günü münasibətilə təbrik etməsi, dünyada ikinci böyük iqtisadiyyata malik bir dövlətin liderinin Azərbaycana qarşı olan bu münasibəti bizi çox sevindirir. İnanırıq ki, Azərbaycan-Çin münasibətlərinin bu şəkildə inkişaf etməsi nəticə etibarilə Azərbaycanın suverenliyinin qorunması, bütün sahələr üzrə təhlükəsizliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının genişləndirilməsi, dövlətimizə qarşı etimadıb artmasına bir töhfədir”.

Deputat sözlərinə davam edərək bildirib ki, Azərbaycan enerji resursları ixrac edən dövlətlə yanaşı, logistik şəbəkəni formalaşdıra bilən şimal-cənub, eyni zamanda şərq-qərb yollarının kəsişməsində yerləşən dövlət kimi də tanınır: ”Həmçinin, Azərbaycan Orta Asiya dövlətləri ilə sıx əlaqədədir. Bu dövlətlər məhz Xəzər üzərindən Orta Dəhlizin inkişaf etdirilməsi, Çindən Avropaya gedən yüklərin daşınmasının həyata keçirilməsi Azərbaycanın əldə etdiyi ən böyük uğurlardan biridir. Xüsusilə də Çin və Azərbaycan münasibətlərinin günü-gündən inkişaf etməsi nəticə etibarilə Orta Dəhlizin yaxın gələcəkdə yük daşımaları üçün ən etibarlı yol olacağına inamı artırmaqdadır. Zəngəzur dəhlizinin açılması ilə yük daşımalarının daha da artacağına şahidlik edə biləcəyik. Digər dövlətlərdən fərqli olaraq Azərbaycan öz ərazilərində məhz dəmiryolları, avtomobil yollarının tikilməsi, hava limanlarının inşasını özü həyata keçirib. Bu baxımdan Azərbaycan belə məsələlərdə müstəqil qərarlar verə bilir və daha münasib qiymətlər təklif edə bilir. Düşünürəm ki, yaxın gələcəkdə Orta Dəhlizdən yüklərin daşınmasının vahid tarifə keçirilməsi ilə bu layihə daha da cəlbedici olacaq”.

*Ləman Sərraf*

# Moskvanın və Bakının səbri tükənir



*Rusiyalı politoloqlar Ermənistanın oyunbazlıqlarından danışdılar*

Rusiyanın təklifi ilə keçirilən beynəlxalq tədbirləri boykot edən Ermənistanın baş naziri Paşinyanın ilin son toplantısında Rusiyaya gedib-getməyəcəyi müzakirə mövzusudur. Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri, politoloq Tatyana Poloskovanın fikrincə, söhbət Avrasiya İqtisadi İttifaqının iclasından gedirsə, Paşinyanın orada iştirakı həm Rusiya, həm də Ermənistan üçün prinsipial məsələdir.

**Tatyana Poloskova: ”Paşinyanın Sankt-Peterburqdakı tədbirlərdə iştirakdan imtinası kobud siyasi demarş xarakteri alır”**

Onun sözlərinə görə, 2023-cü il dekabrın 22-də “Rosakkreditasiya” Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin Akkreditasiya Orqanları Rəhbərləri Şurasına sədrliyini Ermənistana verib. “Bundan əlavə, Milli Assambleyanın sədri Alen Simonyan bu il dekabrın 22-də ölkənin 2024-cü ildə Aİİ-yə mümkün sədrliyini elan edib. Simonyan bəyan edib ki, Ermənistan KTMT-nin işini iflic etmək niyyətində deyil, lakin İrəvan yalnız erməni maraqlarına zidd olmayan sənədləri ratifikasiya edəcək. Bu vəziyyətdə Paşinyanın Sankt-Peterburqdakı tədbirlərdə iştirakdan imtinası kobud siyasi demarş xarakteri alır və Rusiya ilə münasibətlərə ciddi zərbə vura bilər. Qərbin hələ də rəsmi İrəvana verdiyi vədləri həyata keçirməyə tələsmədiyini nəzərə alsaq, belə konfiqurasiyanın ona sərf edəcəyi ehtimalı azdır”, - Poloskova deyib.

O, həmçinin qeyd edib ki, Paşinyan dəfələrlə məntiqsiz davranış nümayiş etdirib və bununla da Rusiyanı qıcıqlandırıb: “Amma bu halda Ermənistan Ali Avrasiya İqtisadi İttifaqının iclasında iştirak etməkdə maraqlıdır. Əks halda, Rusiya ilə münaqişə sərt qarşıdurma mərhələsinə keçəcək. Ermənistan buna iqtisadi cəhətdən dözməyəcək”.



**Vladislav Gerdin: ”Yenidən manipulyasiyalar, konsepsiyaların dəyişdirilməsi başlayır və İrəvandakı siyasətçilər revanşist bəyanatlar səsləndirirlər”**

Digər rusiyalı politoloq Vladislav Gerdinin fikrincə isə, son aylar Paşinyanın qeyri-adekvat davranışı həm Azərbaycanın, həm də Rusiyanın səbrini daşdırıb. Amma həm Bakı, həm də Moskva Paşinyana siyasi hərəkətlərini korrektə etməyə çağırışlar edirlər: “Görünür, Bakı və Moskvanın erməni tərəfinə qarşı öz iddiaları var. Amma Azərbaycan və Ermənistanın birgə bəyanatından sonra biz erməni tərəfinin yeni dağıdıcı hərəkətlərini görürük. Yenidən manipulyasiyalar, konsepsiyaların dəyişdirilməsi başlayır və İrəvandakı siyasətçilər revanşist bəyanatlar səsləndirirlər. Bu mənada Paşinyan və onun kabineti Bakı və Moskvanın ehtimal reaksiyasını açıq-aydın qiymətləndirmir”.

Gerbinin fikrincə, Paşinyan artıq qırmızı xəttə çatıb və bundan sonra reallıq Ermənistan üçün sürətlə dəyişə bilər. “Ermənistanın baş nazirinə dekabrın sonunda Rusiya XİN nümayəndəsi Sankt-Peterburqa səfər etmək barədə rəsmi təklif göndərib. İrəvana göndərilən sənəddə yazılıb: “Biz ümidvarıq ki, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya Federasiyası prezidentinin dəvətini qəbul edəcək və dekabrın 25-26-da Sankt-Peterburqa gələcək. Bütün suallarınızı orada verə bilərsiniz”, - deyə o bildirib.

Beləliklə, politoloqlar qənaətə gəlirlər ki, son təklif qəbul edilməsə, İrəvanla başqa cür danışmağa başlayacaqlar. Moskva Paşinyanı çox sərt şəkildə cəzalandıra bilər.

*Afət Tahirqızı*





Elçin Bayramlı

# Yeni il kimin bayramıdır?

***Hər Yeni il bayramı gələndə cəmiyyətdə, mətbuatda, sosial şəbəkələrdə müzakirələr baş alıb gedir. Millətçilər və dinçilər başlayırlar ki, bəs bu xristianlıq bayramıdır, bizə yaddır, niyə onu qeyd etməliyik filan. Çoxları belə cavab verir ki, nə olsun xristianlığın bayramıdır, il dəyişir, bütün dünyada qeyd olunur, biz də qeyd etməliyik. Təbii ki, haqlıdırlar. İlin dəyişməsi bayram kimi qeyd oluna bilər və burada milli, qeyri-milli nəsə axtarmaq axmaqlıq olardı. Lakin Qış bayramının, Şaxta babanın, Yolka (Yol ağacı) bəzəmək ənənəsinin bizim çox qədim köklərimizdən gəldiyini bilsəydilər, cavabları daha sanballı olardı deyə bu kiçik məqalədə məsələyə bir az aydınlıq gətirməyə çalışacağam.***

Qış bayramı haqda qədim hind, Çin, Şumer, Misir mədəniyyətlərində məlumatlar var. Şaxta Baba və Yolka ilə bağlı ən qədim məlumatlar 5 min il tarixi olan Şumer mətnlərində var. Eyni dövrə aid hindlilərə məxsus müqəddəs dini-fəlsəfi biliklər toplusu olan Vedalarda da Qış bayramı haqda məlumatlar var.

Tədqiqatlara görə, qədim türklərin ən böyük bayramı dekabrın 25-nə düşən “Açı” (“acı”) suyu” bayramı idi. Bu gün içərisinə açı (xaç) salınmış su ilə yuyunub təmizlənmək çox vacib sayılırdı ki, bu da Ulu Tanrıya (Tanrı xana) biətin ifadəsi sayılırdı. Qeyd etmək lazımdır ki, bərabərtərəfli xaç qədim mədəniyyətlərdə əbədiyyəti simvolizə edən müqəddəs işarə idi.

Həmin gün hər kəs evə müqəddəs sayılan, Tanrının əbədilik rəmzi olan şam və ya küknar budağı gətirməli idi. Həmişəyaşıl olması səbəbilə Yolkanın dirilik, əbədilik simvolu kimi müqəddəsləşdirilməsi tarixi isə qədim türklərdə hələ Tanrıçılıq dinindən təxminən 3 min il əvvələ gedib çıxır. Bu ağacın konus formalı olmasından dolayı onu bəzəmək Tanrıya qovuşmaq istəyinin nəticəsidir. Yeni, bunun mahiyyəti Tanrıya gedən yolu bəzəməkdir, ən zirvədəki ulduz isə Yaradanı simvolizə edir.

Bu ənənələr Tanrının daha qədim adı olan Yersu ilə bağlıdır. Yolkanın evə gətirilməsi Yersunun ərməğanı hesab edilirdi. İnama görə, Tanrı Yersunun iqamətgahı yerin təkində və mərkəzində yerləşib. Burada, Dünya Ağacının rəmzi olan nəhəng, müqəddəs yolka (şam) ağacı bitib. Bu ağacın altında onun hamisi sayılan, əyninə uzun xalat geymiş ağ saqqallı bir qoca əyləşib. Bu, Ülgən (Ölgən) Babadır.

Ülgən Baba çox xeyirxah qocadır, ildə bir dəfə qış vaxtı yerin üstünə çıxıb adamlara qonaq gəlir, böyük torbasında uşaqlara hədiyyələr və Yolka gətirir. Uşaqlar və böyüklər həmin yolkanın ətrafında dövrə vuraraq səhərə qədər nəğmə oxuyub şənlənirlər. Yolka o dərəcədə müqəddəs sayılırdı ki, hətta tanrıçılıq dövründə ölən adamların qəbirlərini şam budaqcıqları ilə döşəyirdilər. İndi də bizim qəbiristanlıqlar şam ağacları ilə doludur.

Şam sözünün qədim dilimizdə Tanrının adlarından biri olması da çox şeydən xəbər verir. Azərbaycanda Şamaxı, Şə(a)mkir, Şamlıq kimi toponimlərin də Tanrının şərəfinə verildiyi aydın olur. Şaman sözünün etimologiyasının kökündə də bu dayanır.

Yazımızdan aydın olduğu kimi, xristianlıqdan azı 3 min əvvələ aid olan bu bayram İsa peyğəmbərin doğuluşu və ya təqvim ilinin başlaması ilə bağlı deyil, konkret olaraq qədim mifoloji dini görüşlərimizə dayanır.

Miladi Yeni ilini, Qış bayramını Şaxta (Ülgən) Baba və Yolka (Şam) atributları ilə bütün türkdilli xalqların (müsəlman, xristian, buddist inanclı) geniş qeyd etməsi böyük tarixi təbəddülatlar yaşamış qədim sivilizasiyasının gen yaddaşından qaynaqlanır.

Onu da qeyd etmək lazımdır ki, zəngin və qədim mədəniyyət elementi olan bayramlar cəmiyyətə böyük planda müsbət enerji verən mərasimlərdir. Alimlərin və psixoloqların rəyinə görə, kütləvi şənliklər və bayramlar cəmiyyətə xeyli pozitiv enerji yükləyir və xeyli müddət bunun təsiri insanların psixologiyasında davranışında özünü əks etdirir. Xülasə sözüm ondadır ki, qədimlərdə bizim olan, sonradan başqalarına təhvil verib imtina etdiyimiz mədəniyyət elementlərini onlardan geri almaq əvəzinə öz kökümüzdən çıxarıb yenidən sahiblənmək lazımdır. Milli və bəşəri Bayramınız mübarək!

# Əngəlləri aşdılar, cəmiyyətin stiqmasını yox



## *Fiziki məhdudiyyəti olan uşaqların sağlam yaşıdlarından daha çox sosiallaşmağa ehtiyacı var*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

Beynəlxalq təsnifata görə əlillik, insanın həyat fəaliyyətinin səviyyəsini və sağlamlığının məhdudlaşmasını bildirən ümumi bir termindir. İnsan bədəninin və ya bədən strukturunun fəaliyyətində problem yaradan pozuntular müəyyən hərəkətlərin icrasını məhdudlaşdırır. Həyat fəaliyyətinin məhdudlaşması dedikdə, insanın bəzi hadisə və vəziyyətlərdə iştirakının məhdud olması anlaşılır. Sağlamlıq imkanları məhdud olan uşaqlar, öz həmyaşıdları ilə müqayisədə inkişaflarında geriqalma və ya hərəkət, qavrama kimi başqa funksiyaların pozulması aşkar olunan uşaqlardır. Onların daha çox sosiallaşmağa, ünsiyyətə ehtiyacı var.

Lakin ətrafımızda çox rastlaşmışıq, fiziki məhdudiyyətli adam görən kimi əksəriyyət qulağını çəkir, "Allah uzaq eləsin" deyir və üstəlik, onun bu davranışını o məhdudiyyətli insan görür. Halbuki fiziki qüsurlu insanların mərhəmətə yox, ılıq bir təbəssümə, sevgiyə, anlayışa ehtiyacı var. Bu cür neqativ münasibətlərə görə onlar evdən bayıra çıxmırlar. Çünki bayıra çıxan kimi onu barmaqla göstərirlər.

Bəzən cəmiyyət öz zövqünü başqalarının həyatından üstün tutur – biri bayırda əlil insan görmək istəmirsə, o əlil evə qapanmalı, həyatını 4 divar arasında keçirməli, bəzən intihar etməli olur. Niyə? Çünki onun doğulduğu cəmiyyət hələ ibtidai düşüncədən ayrılmayıb. İnsanlar bilmirlər ki, onların qınağı, stiqması üzündən bir yox, yüzlərlə fiziki qüsurlu insan ev həbsinə məhkum olur.

Digər bir problem də onların bayırda rahat hərəkətinin tənzimlənməməsidir ki, əlil arabaların keçidi üçün xüsusi panduslar çox azdır. Əgər fiziki qüsuru olan adam bir ticarət mərkəzinə, instituta, metroya, kitabxanaya girmək istəsə, bunu tək bacarmayacaq, çünki keçid üçün pandus qoyulmayıb. Səkilər işğal edilərək alver dükanlarına, avtomobilyuma məntəqələrinə çevrilib, piyadaların keçməsi üçün nəzərdə tutulan keçidlərə isə düşmək iki ayağı olan üçün də çətindir, o ki qaldı fiziki problemi olan insan ola.

Əslində, əlilliyi olan şəxslərin hüquqlarının qorunması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin sosial müdafiə sahəsinə, həssas qruplara xüsusi diqqət və qayğısı əlilliyi olan şəxslərin də sosial təminatı, onların tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin ildən-ilə güclənməsinə imkan verib.



Azərbaycan 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulub və ölkəmizdə Konvensiyadan irəli gələn öhdəliklər uğurla yerinə yetirilir. 31 may 2018-ci ildə qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir.

Beləliklə, ölkəmizdə fiziki imkanları məhdud uşaqların hüquqları "Uşaq hüquqları haqqında" Konvensiya, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əlillərin hüquqları haqqında" Konvensiya, "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qorunur.

Bu sahədə qüvvədə olan qanunvericilik, əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslər əlilliyə görə əmək pensiyası və ya aylıq sosial müavinətlə, eləcə də 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər aylıq müavinətlə təmin edilir. Müharibə ilə əlaqədar, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər həmin pensiya və ya aylıq sosial müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar. Həmçinin, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, onlara, həmçinin, əlilliyi müəyyən edilmiş uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü verilir.



Əlillərin həyatına normal davam edə bilməsi üçün dövlət tərəfindən reabilitasiya xidmətləri göstərilir. Reabilitasiya artıq itirilmiş funksiyaların bərpasıdır. ÜST-nin tərifinə görə, reabilitasiya – fərdin maksimal mümkün olan səviyyədə fəaliyyətə uyğunlaşdırılması üçün tibbi, sosial, təhsil və əmək tədbirlərinin kompleks şəkildə məqsədyönlü istifadəsidir. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, sosial reabilitasiya, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların həyat səviyyəsinin yaxşılaşdırılmasını, onlara cəmiyyətin həyatında iştirak etmək üçün digər vətəndaşlarla bərabər imkanlar yaradılmasını təmin edən tədbirlər sistemidir.



Hazırda ölkəmizdə Şağan Reabilitasiya Pansionatı, Mərdəkan Reabilitasiya Pansionatı, Bakı Reabilitasiya Mərkəzi,1 nömrəli Uşaq Reabilitasiya Mərkəzi, Respublika Reabilitasiya Mərkəzi, Qəbələ Uşaq Reabilitasiya Mərkəzi, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran, Yevlax Reabilitasiya Mərkəzləri, 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi fəaliyyət göstərir.

Əlilliyi olan şəxs və ya qanuni nümayəndəsi əlilliyi olan şəxsin yaşadığı ərazi üzrə tək şəxsiyyət vəsiqəsi ilə Tibbi Sosial Ekspertiza Kommisiyalarına müraciət edərək yataq fondunun doluluq vəziyyətinə əsasən reabilitasiya üçün istədiyi tarixə rezervasiya formalaşdırır. Bunun üçün yalnız əlilli olan şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur.

Əlilliyin aradan qaldırılmasına və ya kompensasiyasına yönəldilmiş tibbi, psixoloji, pedaqoji, idman, sosial-iqtisadi və digər tədbirlər sistemi vasitəsilə əlilliyi olan şəxslərin müstəqilliyinin, fiziki, əqli, məişət, sosial və peşə-əmək qabiliyyətinin tamamilə və ya qismən bərpası üçün reabilitasiya aparılır, həmçinin orqanizmin anadangəlmə, yaxud xəstəlik və ya zədə nəticəsində sonradan pozulmuş funksiyalarının bərpasına və kompensasiyasına yönəldilmiş tibbi tədbirlər sistemi kimi tibbi reabilitasiya aparılır. Reabilitasiya dəri üzərindən soyuq-isti tətbiqi, dərin qızdırıcılar, elektroterapiya, ultrasəs terapiya, laborator xidmətlər, stimulasiya müalicəsi, hidroterapiya, masaj, MBT kimi müxtəlif üsullarla tətbiq edilir.

Sosial-psixoloji reabilitasiya çərçivəsində göstərilən xidmətlər siyahısına psixoloji diaqnostika, psixoloji xidmətlər, konsultasiya, korreksiya, psixoterapiya, psixoloji treninq, qrup terapiyası, loqopedik müayinə və korreksiya, sosial-pedaqoji fəaliyyət, sosial-psixoloji maarifləndirmə və profilaktika, əmək terapiyası, erqoterapiya, mədəni-kütləvi tədbirlər daxildir.

Məlumat üçün qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2023-cü ilin yanvar-avqust ayları ərzində 34,1 min şəxsə əlillik təyin edilib. Onlardan 16,8 mininə ilkin, 17,3 mininə təkrar əlillik təyinatı aparılıb. Əlilliyin qiymətləndirilməsi elektron sistem vasitəsilə, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumat əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir. Bu ilin 8 ayında agentliyin reabilitasiya mərkəzləri tərəfindən 49,1 min şəxsə reabilitasiya xidmətləri göstərilib.

***Lalə Mehralı***

PROBLEM

SON SƏHİFƏ
SƏS
26 dekabr
2023-cü il

# Düzgün ailə-uşaq münasibətləri necə qurulmalıdır?

AYDINLIQ GƏTİRİLDİ



***"Biz bugünkü uşaqlardan gileylənirik. Sabah da onlar öz uşaqlarından narazılıq edəcək. Hər yaş nəslinin psixologiyası fərqlidir. İndiki gənclik "Z" nəsli sayılır. Hər valideyn istəyir ki, övladları onların istədiyi kimi yaşasın. Amma belə ola bilməz. Uşaqlar təkcə valideynin yox, həm də "zaman"ın övladlarıdır.***

Hər zamanın öz tələbatları var. Ana-ata da görür ki, uşaq onun istədiyi kimi davranmır, bu yerdə konflikt başlayır. Sonra da valideyn müasir tələblərə cavab verməyən tərbiyə üsullarından istifadə edir. Belə etməklə parlaq gələcək yetişdirmək olmur". Bu sözləri SİA-ya sosioloq Üzeyir Şəfiyev deyib. "Hərdən görürük ki, valideynlər çox ciddi rejim tətbiq edir. Uşaqla dostluq etmir, danışmır. Belə olanda da uşaq özünə qapanır və ya yalnış dostlar tapır. Hər şey mühitdən asılıdır. Məsələn, Nəsrəddin Tusinin "Əxlaqi-nasiri" kitabında deyilir ki, uşaqlarınızı pis dostlardan uzaq tutun. Amma indi bunu bacara bilirik mi? Xeyr. Sosial şəbəkələr, yalnış mühit və s. amillər buna imkan vermir",- deyə o əlavə edib.

O həmçinin, boşanma amillərinin də uşaqlara necə təsir etməsindən danışıb: "Görürük ki, günü-gündən boşanmalar artır. Ana-atanın ayrılması da uşaqların psixologiyasına mənfi təsir edir. Hətta suisidal, yəni intihara meyilli davranışlar da başlaya bilər. Bundan əlavə, bullinq hadisələri də artır. Yeniyetmələr bir-birini incidir, təhqir edir və s".

***Ləman Sərraf***

# "Marketlər endirim adı ilə vətəndaşları..."



"Hər gün on tonlarla qidanın yararlılıq müddəti bitir. Lakin bu qidaların son taleyinin necə olması qaranlıq olaraq qalır. İl ərzində yalnız bir şirkətin öz təşəbbüsü ilə 100 tona qədər qida məsullarının məhv edilməsi prosesində iştirak etmişik.Digər istehsalçı şirkətlərdən isə məsələ ilə bağlı səs çıxmayıb". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, yararlılıq müddəti bitmiş məsulların son ünvanı təəssüf ki, bir çox hallarda biz istehlakçılarıq: "Çünki marketdə yararlılıq müddəti bitmiş məsul distribütörə qaytarılır və məsul istehlakçıya verilir. İstehlakçı isə məsulun üzərində müəyyən dəyişikliklər edərək, məsulu yenidən satış müəssisələrinə göndərir. Dövlət orqanları bu prosesi dəfələrlə ifşa etsələr belə, proseslər çox gizli formada gedir. Başqa sözlə desək, vaxtı keçmiş məsul açıq şəkildə KİV, ictimai təşkilatların iştirakı ilə məhv edilməlidir. Vaxtı keçmiş məsulların çeşidi çox müxtəlifdir, burada 20 minə qədər istiqamət var. Buna görə də vaxtı keçmiş məsullarla bağlı dəqiq bir statistika yoxdur.

Marketlərdə endirimli məsullarla endirimdə olmayan məsullar eyni taxcaya qoyulur. Vətəndaş isə bəzən endirimdə olmayan məsulu götürür və kassada endirimdə olmadığını öyrənir. Bir sözlə, marketlər endirim adı ilə vətəndaşları marketə cəlb etmək üçün strategiya qururlar".

***Səbinə Hüseynli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "11-40 yaşlı əhalinin peyvəndlənməsi könüllü olacaq"



***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki tibb müəssisələrində 11-40 yaşlı əhali arasında qızılca əleyhinə immunizasiya tədbirlərinin aparılması üçün müvafiq təlimat hazırlanır. SİA xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.***

Qeyd olunub ki, Səhiyyə Nazirliyinin Azərbaycana gətirdiyi peyvəndlərin təhvil-təslimi yekunlaşdıqdan sonra tibb müəssisələrində qeyd olunan əhali kateqoriyasından olan şəxslərin qızılcaya qarşı peyvəndlənmə prosesinə başlanılacaq. Peyvəndlənmə prosesinin aparılma qaydaları və prosesin təşkil olunacağı ambulator-poliklinik xidmət göstərən tibb müəssisələri barədə ictimaiyyətə əlavə məlumat veriləcək. Qeyd edək ki, 11-40 yaşlı əhali qruplarının yoluxmadan müdafiəsi üçün 1 dəfə peyvənd olunması kifayət edir və peyvəndləmə prosesi könüllülük əsasında aparılacaq.

# Putinin vizit kartı hərracda 2 milyona satıldı




***Putinin 1990-cı illərdəki vizit kartı Sankt - Peterburqda elektron hərracda iki milyon rubla satılıb. Bu barədə RİA Novosti məlumat yayıb.***

Məlumata görə, 1990-cı illərin əvvəllərində Leninqrad Şəhər Xalq Deputatları Soveti sədrinin beynəlxalq əlaqələr üzrə müşaviri vəzifəsində çalışan Putinin vizit kartı satışa çıxarılıb. Vizit kartının başlanğıc qiyməti min rubl idi. Sonda vizit kart iki milyon rubla alınıb. Hərrac saytında onun kim tərəfindən alınması haqqında məlumat verilməyib. Qeyd edək ki, bundan əvvəl Rusiya Prezidenti Vladimir Putinin avtoqrafı Moskvada keçirilən hərracda 340 min rubla satılmışdı.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**